Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 29 (8052) ÇƏRŞƏNBƏ, 6 fevral 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Azərbaycan öz inkişafının yeni mərhələsinə qədəm qoyub

## Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının sədr müavini-icra katibi Əli Əhmədov:

## "Prezident İlham Əliyevin müəllifi olduğu davamlı islahatlar konsepsiyası Azərbaycanın sosial-iqtisadi yüksəlişinə böyük təkan verəcək, qlobal əhəmiyyətini daha da artıracaq"

**2018-ci il Azərbaycanda cəmiyyət həyatının bütün sferalarında pozitiv hadisələrlə əlamətdar oldu. Sosial-iqtisadi sahədə baş verən yeni keyfiyyət dəyişiklikləri, prezident seçkiləri, cəbhədə əldə olunan uğurlar, qlobal enerji və nəqliyyat layihələrinin işə düşməsi ölkəmizin yüksəlişinə təkan verdi. Həmçinin Azərbaycanın regionda və dünyada söz sahibi kimi mövqelərini bir qədər də möhkəmləndirdi. Ötən il əldə olunan uğurlar həm də 2019-cu ilin növbəti yüksəliş mərhələsi olması üçün ciddi əsaslar yaradır.**

**Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının sədr müavini-icra katibi Əli ƏHMƏDOV qəzetimizə müsahibəsində bu məsələlərdən söhbət açdı.**

*- Əli müəllim, geridə qoyduğumuz 2018-ci ili respublikamız üçün siyasi-ictimai baxımdan necə dəyərləndirərdiniz?*

- 2018-ci il Azərbaycanın şərəfli inkişaf salnaməsinin mühüm illərindən biri kimi müstəqillik tariximizə həkk olundu. Ötən ilin yekunlarına ən doğru qiyməti Prezident İlham Əliyev Nazirlər Kabinetinin ötənaykı geniş iclasında qeyd edib. 2018-ci ildə iqtisadiyyatımızın və cəmiyyət həyatının digər sferalarının inkişafı davam edib. İqtisadi inkişafın ayrı-ayrı rəqəmlərini sadalamağa, güman edirəm ki, ehtiyac yoxdur. Bu barədə oxucuların kifayət qədər ətraflı məlumatı var. Nazirlər Kabinetinin iclasında makroiqtisadi göstəricilərin hamısı diqqətə çatdırıldı.

Bütövlükdə onu qeyd edə bilərəm ki, məhz bu inkişafa görə Azərbaycan XXI əsrin ən uğurlu dövlətlərindən biri kimi səciyyələndirilə bilər. Reallıq ondan ibarətdir ki, yeni əsrdə Azərbaycan qədər sürətli iqtisadi inkişafa malik olan bir ölkə olmayıb. Cəmi 15 ildə iqtisadiyyatımızın üç dəfədən çox artımı ondan xəbər verir ki, sözün həqiqi mənasında qısa müddətdə ölkəmiz böyük yüksəliş mərhələsi keçib.

Lakin bu inkişaf təkcə iqtisadi artımda ifadə olunmur. Qeyd etdiyim kimi, cəmiyyət həyatının bütün sahələrində böyük dəyişikliklər baş verib. Bu dəyişikliklər Azərbaycanın simasının köklü surətdə yenilənməsinə, cəmiyyətimizin bütün sferalarında əsaslı şəkildə inkişafına gətirib çıxarıb. Azərbaycan bu illər ərzində, 2018-ci il də daxil olmaqla, çox modernləşib. Hansı sahəyə nəzər salsaq, istər infrastruktur, istər ictimai həyatın təşkili baxımından və digər istiqamətlərdə Azərbaycan əsaslı şəkildə dəyişib, müasirləşib, yenilənib.

İlin ən mühüm siyasi hadisəsi isə aprelin 11-də keçirilən prezident seçkiləri oldu. Xalqımız bu seçkidə də ən layiqli namizədi - cənab İlham Əliyevi dəstəkləməklə inkişafın davamlı olmasına, Azərbaycanın daha qüdrətli dövlətə çevrilməsinə səs verdi.

2018-ci ilin ən mühüm yeniliklərindən biri islahatların özünün müsbət nəticələrini göstərməsidir. Artıq bir neçə ildir ki, ölkədə yeni islahatlar həyata keçirilir. Cənab Prezidentin təşəbbüsləri ilə reallaşan bu islahatlar və onun yeni istiqamətləri artıq öz real nəticələrini verməyə başlayıb. Bu baxımdan Azərbaycanda həyata keçirilən islahatların bəhrələrinin əldə edilməsi baxımından 2018-ci ildə mühüm nailiyyətlərə nail olduğunu demək mümkündür. Məxsusi qeyd etmək lazımdır ki, islahatlar elə bir mərhələyə gəlib çatıb ki, həyatın bütün istiqamətlərini əhatə etməklə yanaşı, eyni zamanda idarəetmənin təkmilləşdirilməsi kimi çox incə və eyni zamanda vacib olan sahəni də əhatə edir.

Ardı 3-cü səh.

# Dinlərarası əməkdaşlıq sahəsində Azərbaycan-Rusiya əlaqələri daha da möhkəmlənir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Moskvanın və bütün Rusiyanın Patriarxı Kirillə görüşüb.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Moskvanın və bütün Rusiyanın Patriarxı Kirilli qarşıladı.

Sonra dövlət başçısı Moskvanın və bütün Rusiyanın Patriarxı Kirillə söhbət etdi.

**Azərbaycan Prezidenti İlham ƏLİYEV** dedi:

- Zati aliləri, Sizi Azərbaycanda səmimi-qəlbdən salamlayıram. Mən Sizi yenidən görməyimə çox şadam. Fürsətdən istifadə edərək, ilk növbədə, Sizi patriarx taxtqoyma mərasiminin 10 illiyi münasibətilə təbrik etmək istərdim. Mənə çox xoşdur ki, Siz bu əlamətdar hadisədən az sonra bizim ölkəmizə səfər etmisiniz. Biz bunu Azərbaycana hörmət əlaməti hesab edirik. Həmçinin Sizə demək istəyirəm ki, Azərbaycanda Sizə, Sizin fəaliyyətinizə böyük hörmətlə yanaşırlar. Sizi Azərbaycanda tanıyırlar. Siz ilk dəfə deyil ki, bizim ölkəmizə gəlirsiniz. Sizə dərin hörmət bəsləyirlər. Dünyada təhlükəsizliyin, əməkdaşlığın və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi işində Sizin rolunuz bütün dünyada, o cümlədən bizim ölkəmizdə çox yüksək qiymətləndirilir. Siz dinlərarası dialoqun, müxtəlif konfessiyaların, müxtəlif millətlərin, ölkələrin nümayəndələri arasında qarşılıqlı anlaşmanın möhkəmlənməsi işində çox mühüm rol oynayırsınız. Biz də Azərbaycanda Sizin işlərinizi, sözlərinizi çox diqqətlə izləyirik. Əlbəttə, bir daha qeyd etmək istərdim ki, Sizin bütün fəaliyyətiniz öz xalqınıza xidmət işinə yönəlib. Həmçinin qeyd etmək istərdim ki, Sizin sözləriniz, dərin biliklərə, prinsipial mövqeyə əsaslanan müdrik sözləriniz gənclərin ənənəvi dəyərlər ruhunda tərbiyə edilməsində çox mühüm rol oynayır. Əlbəttə, bizim üçün çox xoşdur ki, Siz bizim ölkəyə çox xeyirxah münasibət bəsləyirsiniz. Artıq qeyd etdiyim kimi, Siz ilk dəfə deyil ki, Azərbaycana gəlirsiniz və Sizin budəfəki səfəriniz də münasibətlərimizin - həm dinlərarası əməkdaşlıq sahəsində, həm də bütövlükdə çox uğurla və dinamik inkişaf edən Rusiya-Azərbaycan əlaqələrinin möhkəmlənməsi işinə xidmət edəcək. Bizdə qarşılıqlı etimad səviyyəsi prezidentlərdən başlamış adi vətəndaşlara qədər bütün səviyyələrdə çox yüksəkdir. Demək istərdim ki, keçən il rekord sayda - 900 minə yaxın rusiyalı Azərbaycana səfər edib. Bu, onu göstərir ki, insanlar və ölkələr arasında münasibətlər ən yüksək səviyyədədir. Ona görə ki, onlar özlərini evdəki kimi hiss edir, buraya yaxşı niyyətlərlə gəlir və burada onlara doğma münasibət bəsləyirlər.

Həmçinin qeyd etmək istərdim ki, keçən il Rusiya və Azərbaycan prezidentləri arasında altı görüş olub. Düşünürəm ki, bu da bizim münasibətlərimizin mahiyyətini və xarakterini, yaxınlığımızı əks etdirən rekord göstəricidir. Əlbəttə, Vladimir Vladimiroviç Putinin Azərbaycana səfəri və mənim Rusiyaya səfərim bizim münasibətlərimizin daha da möhkəmlənməsi işində çox mühüm rol oynayıb. Düşünürəm ki, bizim münasibətlərimiz qonşular arasında münasibətlərə nümunə ola bilər. Bizi tarixi baxımdan bağlayan səbəblər çoxdur və bu gün - biz bütün istiqamətlərdə fəal qarşılıqlı əlaqə saxladığımız bir vaxtda bu əməkdaşlıq, əlbəttə, bizim regionda, Qafqazda sülhün möhkəmlənməsi işində xüsusi əhəmiyyət kəsb edir.

Ardı 2-ci səh.

## Çeyz KERİ, "Formula-1" Qrupunun baş icraçı direktoru:

# "Bakıda "Formula-1"in ən yaxşı yarışı keçirilib"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də "Formula-1" Qrupunun baş icraçı direktoru Çeyz Kerini qəbul edib.

AZƏRTAC xəbər verir ki, "Formula-1" Qrupunun baş icraçı direktoru Çeyz Keri Azərbaycana növbəti səfərindən məmnunluğunu ifadə edərək bildirdi ki, "Formula-1" çərçivəsində ötən il keçirilən 21 yarışın təhlili nəticəsində Bakıda keçirilən bu yarış ən yaxşı yarış hesab edilib.

Dövlət başçısı Bakıda keçirilən "Formula-1" yarışına yüksək qiymət verilməsindən məmnunluğunu ifadə etdi. Ölkəmizə gələn turistlərin sayının ildən-ilə sürətlə artdığını deyən Prezident İlham Əliyev ötən il xarici turistlərin Azərbaycanda iki milyard dollardan çox vəsait xərclədiklərini qeyd etdi və bildirdi ki, yarım milyarda yaxın tamaşaçı auditoriyasına malik olan "Formula-1"in Bakıda keçirilməsi ölkəmizə turist axınının təmin olunması işinə böyük töhfə verir. Dövlət başçısı qeyd etdi ki, bütün bunlar, öz növbəsində, Azərbaycanda turizm sənayesinə cəlb olunmuş kiçik və orta sahibkarlığın inkişafı üçün geniş imkanlar yaradır, eyni zamanda, dünyada daha çox insan Azərbaycan haqqında məlumat alır. Beləliklə, ölkəmizdə "Formula-1" yarışlarının keçirilməsi həm Azərbaycanın dünyada təqdimatı, həm də eyni zamanda, iqtisadi mənfəət baxımından böyük əhəmiyyət daşıyır.

Çeyz Keri dövlət başçısının fikirləri ilə tam şərik olduğunu vurğulayaraq qeyd etdi ki, bu yarışı izləmək üçün Bakıya gələn insanlar paytaxtımızda gördüklərini yüksək qiymətləndirir və Bakını çox sevdiklərini bildirirlər. Çeyz Keri bildirdi ki, "Formula-1" yarışının Azərbaycanda keçirilməsi ölkəyə potensial turistlərin cəlb olunması ilə yanaşı, eyni zamanda, Bakının dünyada daha çox tanınması işinə də öz töhfəsini verir.

Görüşdə Bakıda təşkil edilən "İrimiqyaslı idman yarışlarının keçirilməsinin ölkəyə faydaları" adlı 3-cü beynəlxalq konfransın əhəmiyyətinə toxunuldu, əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Dinlərarası əməkdaşlıq sahəsində Azərbaycan-Rusiya əlaqələri daha da möhkəmlənir

*Əvvəli 1-ci səh.*

Buna görə də biz dövlətlərarası münasibətlərin bütün palitrasına nəzər salanda, əlbəttə, müsbət dinamika görürük. Bu baxımdan, Sizin bugünkü səfəriniz xüsusi rol oynayır.

Ölkəmizə səfər etdiyinizə görə Sizə bir daha dərin təşəkkürümü bildirmək və nəcib işimizdə uğurlar arzu etmək istərdim.

* * *

**Moskvanın və bütün Rusiyanın Patriarxı KİRİLL** dedi:

- Çox hörmətli cənab Prezident, mən Sizinlə görüşmək imkanına görə təşəkkür edirəm. Azərbaycana səfər mənim üçün hər zaman mühüm mənəvi-mədəni hadisədir. Zəngin və qədim tarixi olan, mürəkkəb sivilizasiya qovuşuğunda yerləşən ölkəniz həm ətraf xalqların müdrikliyini, həm də əlbəttə ki, özünün sadə olmayan, amma şübhəsiz, xalqı gözəl mədəniyyət və mənəviyyatla zənginləşdirən tarixi təcrübəsini əxz edib. Mən Azərbaycana səfər edərkən həmişə dinlərarası münasibətlərin yüksək səviyyəsinə diqqət yetirirəm. Həm də bu münasibətlər yalnız hansısa rəsmi səviyyədə göstərici deyil. Bütün bunlar sadə insanların həyatına birbaşa aiddir. Azərbaycandakı pravoslavlar da müsəlman əksəriyyəti kimi bütün imkanlardan istifadə edirlər. O cümlədən Azərbaycanda millətlərarası, dinlərarası sülhün möhkəmlənməsində həm də çox müsbət işlər görən dostum Şeyxülislam Paşazadənin rolunu xüsusi qeyd etmək istərdim. O, həm də şübhəsiz rus kilsəsi ilə təkcə Azərbaycanın müsəlmanları ilə deyil, həm də Qafqazın ali dini rəhbəri olduğuna görə Rusiya müsəlmanları ilə münasibətlərin inkişafında böyük işlər görür. Biz də onun sülhməramlı rolunu, həm də dinlərarası münasibətlər sahəsində mürəkkəb məsələləri həll etmək bacarığını çox yüksək qiymətləndiririk.





Azərbaycanda pravoslav kilsəsinin vəziyyəti ilə əlaqədar Sizə xüsusilə təşəkkür etmək istərdim. Həmişə zati-müqəddəsləri Aleksandr ilə görüşəndə o, bu münasibətləri çox nikbin təsvir edir və mən dəqiq bilirəm ki, bu, reallıqdır və həqiqətən belədir. Azərbaycanda yaşayan pravoslavlar heç bir narahatlıq hiss etmirlər. Onlar öz ölkələrinin həm vicdanlı vətəndaşlarıdır, eyni zamanda, pravoslavdırlar. Onları həm dini əqidələrinə, həm də ənənəyə görə tarixi vətəni - Rusiya ilə bağlayan çox şey var.

Ölkələrimiz arasında münasibətlərin inkişafına Azərbaycan çox sanballı töhfələr verir. Sizin bu münasibətlərin inkişafına xoş məramınız, Sizin səmimiyyətiniz bizim xalqımız tərəfindən yüksək qiymətləndirilir.

Bir məqamı da vurğulamaq istərdim ki, bu gün Moskvada, ümumiyyətlə, Rusiyada Sizin xalqınızın çoxsaylı övladları yaşayır. Onlar müasir Rusiyanın həyatında - həm biznes sahəsində, həm də mədəniyyət aləmində mühüm rol oynayırlar. Moskva şəhərinin müsəlman və pravoslav icmaları arasında münasibətlər də çox uğurlu və dinc şəkildə qurulur. Ulu Tanrıya şükür edirəm ki, çoxmillətli Rusiyada, ümumiyyətlə, hər hansı dinlərarası gərginlik yoxdur və bu, əlbəttə, çox cəhətdən pravoslavların dünya duyumu və onların başqa dinlərə münasibəti ilə şərtlənir. Lakin bu, həm də o cümlədən əslən Azərbaycandan olan müsəlmanların mövqeyi ilə bağlıdır. Başqa sözlə desək, bizim ölkələrimiz, xalqlarımız arasında münasibətlərdə müsbət cəhətlər çoxdur. Mən bu münasibətlərin inkişafını alqışlayıram. Hesab edirəm ki, bu münasibətlər çox cəhətdən həm Rusiya, həm Azərbaycan üçün, həm də xalqlarımız üçün vacibdir. Fikrimcə, bu münasibətlərin potensialı hələ tükənməyib. Sizi əmin etmək istəyirəm ki, Rus Pravoslav Kilsəsi tərəfindən mənim şəxsimdə, Rus Pravoslav Kilsəsinin iyerarxiyasının, o cümlədən Azərbaycandakı ruhanilərin şəxsində Azərbaycan ilə Rusiya arasında münasibətlərin daha da inkişafına səmimi-qəlbdən çalışan etibarlı tərəfdaşlarınız var.

Sizinlə bu gözəl görüş imkanına görə təşəkkür edirəm və bir daha vurğulamaq istəyirəm ki, Azərbaycanda baş verən bütün dəyişiklikləri görəndə sevinirəm. Biz Sizinlə bir neçə il bundan əvvəl burada görüşmüşdük və deməliyəm ki, Bakıya hətta ötəri nəzər salanda burada çox böyük dəyişikliklər baş verdiyi görünür. Bakı əla infrastruktura malik olan gözəl, çox gözəl şəhərə çevrilir. Burada çoxlu gözəl binalar ucaldılıb. Paytaxtdakı böyük dəyişikliklər münasibətilə Sizi təbrik etmək istərdim, lakin burada yaşayan xeyirxah dostlarımdan da eşitmişəm ki, müsbət dəyişikliklər təkcə paytaxtı yox, bütün ölkəni əhatə edir. Buna görə də Sizə Ulu Tanrıdan kömək, ruhani və cismani qüvvə, Azərbaycan xalqına firavanlıq diləmək istərdim.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

* * *

Sonra Moskvanın və bütün Rusiyanın Patriarxı Kirill Azərbaycanın birinci xanımı Mehriban Əliyeva ilə də görüşdü.

## Xocalı soyqırımının iyirmi yeddinci ildönümü haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Xocalı soyqırımı iki yüz ildən çox müddətdə təcavüzkar erməni millətçilərinin xalqımıza qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin qanlı səhifəsidir. Bu qanlı faciədən 27 il ötür. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xocalı şəhərinə hücuma keçmiş, bütün beynəlxalq hüquq, o cümlədən beynəlxalq humanitar hüquq normalarını pozaraq oraya zirehli texnika yeritmiş, şəhərin dinc əhalisinə misli görünməmiş qəddarlıqla divan tutmuşlar. Ermənistan silahlı qüvvələrinin mühasirəsində qalmış şəhər sakinlərindən 613-ü, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca öldürülmüş, 487 dinc sakin ağır yaralanmış, 1275 nəfər isə girov götürülmüşdür.

Xocalı soyqırımını törətməklə Ermənistan Azərbaycana qarşı hərbi təcavüzün miqyasını daha da genişləndirmiş, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin hüdudlarından kənara çıxaraq Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonlarını işğal etmişdir. Bunun nəticəsində 20 min soydaşımızın həyatına son qoyulmuş, 50 mindən çox insan yaralanmış və əlil olmuş, torpaqlarımızın 20 faizi işğala məruz qalmışdır. Dünya tarixinin ən qanlı faciələrindən biri sayılan Xocalı soyqırımı XX əsrdə erməni şovinizminin mahiyyətini aşkara çıxaran təkzibolunmaz tarixi gerçəklikdir.

BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə, İslam Əməkdaşlıq Təşkilatının, Qoşulmama Hərəkatının, Avropa Şurası Parlament Assambleyasının və eləcə də digər beynəlxalq qurumların qərarlarına baxmayaraq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bugünədək beynəlxalq hüququn normaları və prinsipləri, ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyi çərçivəsində öz həllini tapmamışdır.

"Xocalıya ədalət!" kampaniyası çərçivəsində gerçəkləşdirilən tədbirlərin nəticəsi olaraq dünyanın bir sıra ölkələrində bu soyqırımla bağlı müvafiq qərarlar qəbul edilsə də, bəşəriyyət əleyhinə bu cür ağır cinayətə beynəlxalq miqyasda hələ hüquqi qiymət verilməmişdir.

2016-cı ilin Aprel döyüşlərində Azərbaycan Ordusu torpaqlarımızın bir qismini işğaldan azad etmiş, uğurlu Naxçıvan əməliyyatı ilə 11 min hektar ərazi nəzarətimizə keçmişdir. Ölkəmizin ərazi bütövlüyünü bərpa etmək üçün bizim kifayət qədər hərbi gücümüz, iqtisadi potensialımız və siyasi iradəmiz vardır. Mövcud status-kvo qəbuledilməzdir və Ermənistanın işğalçı qüvvələrinin torpaqlarımızdan çıxarılması tələbi daim gündəmdədir.

Azərbaycan xalqı və dövləti Xocalı faciəsini heç vaxt unutmur və unutmayacaqdır.

Xocalı faciəsinin iyirmi yeddinci ildönümü ərəfəsində şəhidlərin xatirəsini dərin hüznlə yad edərək və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Xocalı soyqırımının iyirmi yeddinci ildönümü ilə bağlı tədbirlər planını hazırlayıb onun həyata keçirilməsini təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 fevral 2019-cu il*

## E.R.Salahovun Bakı şəhəri Xəzər Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Elşən Rövşən oğlu Salahov Bakı şəhəri Xəzər Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 fevral 2019-cu il*

## Azərbaycan Respublikasında fəaliyyət göstərən ümumölkə teleradio yayımçılarının xarici ölkələrdə yayımının təşkilinə dövlət dəstəyi verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq milli ümumölkə teleradio yayımçılarının beynəlxalq informasiya məkanında əhatə dairəsinin genişləndirilməsi, onların ölkə haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması və Azərbaycan xalqının mədəniyyətinin və milli-mənəvi dəyərlərinin təbliği sahəsində fəaliyyətinin gücləndirilməsi məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasında fəaliyyət göstərən ümumölkə teleradio yayımçılarının peyk vasitəsilə xarici ölkələrdə yayımını təşkil etmək üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinə 2,0 (iki) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 fevral 2019-cu il*

## Yeni Azərbaycan Partiyasında gənclərlə görüş keçirilib

Fevralın 5-də Yeni Azərbaycan Partiyasında (YAP) gənclərlə görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, Yeni Azərbaycan Partiyasının sədr müavini - icra katibi Əli Əhmədov fevralın 1-də Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin Gənclər Günü münasibətilə gənclərlə böyük bir toplantı keçirdiyini, onlara öz tövsiyələrini verdiyini, gənclərin dövlətin diqqət mərkəzində olması ilə bağlı mesajlarını çatdırdığını xatırladıb. O deyib ki, Azərbaycan Prezidenti gənclərlə dialoqa böyük önəm verir. Bütövlükdə əhali ilə dialoqun qurulması Azərbaycanda həyata keçirilən siyasətin əsas istiqamətlərindən biridir.

Qeyd edilib ki, YAP-ın 700 mindən çox üzvünün əksəriyyəti gənclərdir. Hər il partiyaya 25-30 min yeni üzv qəbul olunur və bu üzvlər arasında gənclər üstünlük təşkil edir. Bu, o deməkdir ki, gənclər Heydər Əliyev irsini öyrənməyə önəm verir, Prezident İlham Əliyevin siyasətini dəstəkləyir və bunu YAP-a üzv olmaqla nümayiş etdirirlər. Seçki kampaniyalarının uğurla baş tutmasına da gənclər böyük töhfələrini verirlər.

"Partiya öz imkanları çərçivəsində gənclərə şərait yaradır ki, fəallıqlarını nümayiş etdirsinlər. 2019-cu ilin dekabrında növbəti bələdiyyə seçkiləri keçiriləcək. Biz çalışacağıq ki, fəal gənclərimiz seçkidə namizəd qismində iştirak etsinlər və özlərini sınasınlar. Bununla da ölkənin ictimai-siyasi həyatında daha yaxından iştirak etmək imkanları əldə etsinlər", - deyə YAP sədrinin müavini bildirib.

## Bakıda "İrimiqyaslı idman yarışlarının keçirilməsinin ölkəyə faydaları" mövzusunda beynəlxalq konfrans təşkil olunub

"Formula-1" Azərbaycan Qran-Prisinin ölkəmizdəki təşkilatçısı "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin (BŞH) təşkilatçılığı ilə fevralın 5-də "İrimiqyaslı idman yarışlarının keçirilməsinin ölkəyə faydaları" mövzusunda beynəlxalq konfrans təşkil olunub.



AZƏRTAC xəbər verir ki, konfransa BŞH-nin icraçı direktoru Arif Rəhimov, Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmid, "Heineken International" şirkətinin "Formula-1" və "Formula-E" yarışlarına sponsorluğuna dair aparıcı mütəxəssis Ben Pinkus və "Formula-1" yarışlarının təşkilatçısı Emili Preyzer qatılıblar.

Tədbirdə Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov və "Formula-1" Qrupunun baş icraçı direktoru Çeyz Keri də iştirak ediblər.

Konfransda "Formula-1": Qlobal brendlər platforması" mövzusunda müzakirələr aparılıb.

Azərbaycanda Amerika Ticarət Palatasının ("AmCham Azərbaycan") icraçı direktoru Natəvan Məmmədova konfransda çıxış edərək bildirib ki, mötəbər beynəlxalq yarışların ölkəmizdə keçirilməsi orta və kiçik biznes də olmaqla bütün sahələrin inkişafına töhfə verir. İdman yarışmaları, eyni zamanda, turizm sektorunun inkişafına da mühüm təsir göstərir.

Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmid təbliğat zamanı brendin uğurla seçilməsinin önəmli olduğunu deyib. Bildirib ki, Azərbaycanla bağlı sonuncu tanıtım videosu ötən ilin sonunda ictimaiyyətə təqdim edilib. Videoçarxın Londonda nümayişi çox uğurlu olub. Cari ildə isə bu təbliğatın Səudiyyə Ərəbistanı, Rusiya, Hindistan, Birləşmiş Ərəb Əmirlikləri və Almaniyada təşkili nəzərdə tutulub. Digər ölkələrdə də təbliğatın aparılması planlaşdırılır.

Sonra tanıtım videosu konfrans iştirakçılarına təqdim olunub.

"Formula-1" yarışının təşkilatçısı Emili Preyzer Azərbaycan Qran-Prisinin dünya çempionatının təqvimində xüsusi çəkiyə malik olduğunu deyərək diqqətə çatdırıb ki, Azərbaycanda kifayət qədər "Formula-1" azarkeşi var. Bütün bunlar rəqəmsal platformalarda aparılan hesablamalar zamanı müəyyən edilir. İldən-ilə yarışı izləyənlərin sayı artır və Azərbaycan Qran-Prisi ilin ən yaxşı yürüşü adını qazanır. Bütün bunlar Azərbaycan Qran-Prisinin təşkilatçılarının yüksək peşəkarlığından xəbər verir.

"Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin icraçı direktoru Arif Rəhimov "Formula-1" yarışının Azərbaycanda keçirilməsinin daha üç il uzadılmasının müsbət hal olduğunu bildirib. O qeyd edib ki, bu müqavilə Azərbaycanın Qran-Priyə uğurla evsahibliyi etməsinin göstəricisidir. Azərbaycanın mötəbər beynəlxalq idman tədbirlərinin keçirilməsində böyük uğurlar əldə etdiyini vurğulayan A.Rəhimov deyib: "Biz yarışı təşkil etməyə başlayanda uğur qazanıb-qazanmayacağımızı bilmirdik. "Formula-1" tərəfdaşlarının və hökumətin verdiyi rəy işimizin uğurlu olduğunu göstərir. Çalışacağıq ki, qarşıdakı illərdə də uğurlarımız davam etsin".

O diqqətə çatdırıb ki, indiki məqamda "Formula-1"in Bakıdan ölkənin başqa bir şəhərinə köçürülməsi mümkün deyil. BŞH tərəfindən regionlarda "Formula-1" üzrə simulyator yarışları keçirilib. Cari ildə də Azərbaycan Qran-Prisində bir sıra tanınmış musiqiçilər konsert proqramı ilə çıxış edəcəklər. Tanınmış müğənnilərin biri ilə danışıqlar sonuncu mərhələdədir.

Konfrans zamanı Azərbaycan Qran-Prisi ilə bağlı müxtəlif videoçarxlar nümayiş etdirilib.

Digər çıxış edənlər də irimiqyaslı idman yarışlarının ölkə üçün əhəmiyyətindən danışıblar. Qeyd olunub ki, bu yarışlar iqtisadi inkişafa töhfə verməklə yanaşı, ölkənin beynəlxalq aləmdə nüfuzunun artmasına da səbəb olur.

## *Çeyz KERİ:* "Azərbaycan "Formula-1" yarışı üçün ideal məkandır"

"Formula-1" Azərbaycan Qran-Prisi 2023-cü ilədək Bakıda təşkil ediləcək.

AZƏRTAC xəbər verir ki, fevralın 5-də Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov və "Formula-1" Qrupunun baş icraçı direktoru Çeyz Keri bununla əlaqədar müqavilə imzalayıblar.

Azərbaycan Qran-Prisinin keçirilməsinə dair müqavilənin müddətinin uzadılmasından məmnunluğunu bildirən A.Rəhimov deyib: "Bu, bizim üçün qürurverici hadisədir. Son bir neçə il ərzində paytaxt sakinlərinin arzuları gerçəkləşdi və biz Bakıda keçirilən "Formula-1" yarışlarının sadə bir ideyadan bu idmanın tarixində həyəcan və gərginliklə dolu ən maraqlı yarış həftəsonlarından birinə çevrilməsinə hamılıqla şahid olduq. Həmçinin bu yarışlarda biz "Formula-1" yarışının ən maraqlı məqamlarını da müşahidə edə bildik".

Nazir vurğulayıb ki, hər il dünyanın müxtəlif ölkələrindən Bakıya daha çox avtoidman həvəskarı təşrif buyurur. Biz şadıq ki, dünya avtoidman ictimaiyyəti Azərbaycan Qran-Prisinə böyük maraq göstərir. A.Rəhimov bu uğurun qazanılmasında göstərdikləri böyük dəstəyə görə Çeyz Keri başda olmaqla "Formula-1" Qrupunun kollektivinə təşəkkürünü bildirib.

"Müqavilənin uzadılması nəticəsində yerli və regional biznes qurumları "Formula-1"in qlobal platformasından daha çox faydalanmaq imkanına sahib olacaqlar. Digər tərəfdən, yarış həvəskarları daha çox əyləncə imkanı əldə edəcəklər. Bunun nəticəsində biz öz kommersiya gəlirlərimizi maksimum səviyyədə artıra biləcəyik. Bu fürsəti nəzərə alaraq deyə bilərəm ki, müqavilənin uzadılması bizim üçün heç vaxt mübahisəli məsələ olmayıb. Biz böyük məmnuniyyətlə builki yarış da daxil olmaqla daha 5 Qran-Priyə evsahibliyi etməyə hazırıq", - deyə A.Rəhimov bildirib.

Çeyz Keri Azərbaycanın "Formula-1" yarışı üçün ideal məkan olduğunu bildirərək deyib: "Çox şadıq ki, bu müqaviləni yeniləməklə biz Azərbaycan Qran-Prisini daha bir neçə il ərzində "Formula-1" dünya çempionatında görə biləcəyik. Bakı yarışı gərgin mübarizə və həyəcan dolu anlarla çox qısa müddətdə mövsümün ən məşhur Qran-prilərindən birinə çevrildi. Azərbaycan daim yüksək qonaqpərvərlik nümayiş etdirir. Gözoxşayan Bakıda isə mükəmməl yarış üçün möhtəşəm ab-hava hökm sürür. Bu baxımdan bütün avtoidman həvəskarlarını çox maraqlı yarışı qaçırmamaq üçün "Formula-1" Azərbaycan Qran-Prisinə baxmağa dəvət edirəm".

Bakıda ilk dəfə "Formula-1" Qran-Prisi 2016-cı ildə təşkil olunub. Baxımlılığı ilə seçilən Bakı yarışı həmişə ilin ən yaxşı Qran-priləri arasında yer alır.

## *Azad RƏHİMOV:* "Formula-1" Azərbaycan Qran-Prisi yerli şirkətlər üçün yeni imkanlar açır

"Formula-1" dəyişən və inkişaf edən idman növüdür və yarışın təşkil olunduğu ölkələr üçün yeni imkanlar açır. İdmanın bu növü ev sahibi ölkələrin iqtisadiyyatına müsbət təsir göstərir. Bütün bunları nəzərə alaraq qarşılıqlı razılıq əsasında Azərbaycan Qran-Prisinin 2023-cü ilədək keçirilməsi ilə bağlı müqavilə imzaladıq.

AZƏRTAC xəbər verir ki, bu sözləri fevralın 5-də Bakıda təşkil olunan mətbuat konfransında "Formula-1" Qrupunun baş icraçı direktoru Çeyz Keri deyib.

O bildirib ki, yaxın vaxtlarda "Formula-1"də inqilabi dəyişikliklər gözlənilmir. Əsas dəyişiklik 2021-ci ilə nəzərdə tutulub. Belə ki, bolidlərin aerodinamikası artırılacaq. Bu da yarışlara həyəcan qatacaq və azarkeşlərin idmanın bu növünə marağını daha da artıracaq.

"Şəhər traslarında təşkil olunan "Formula-1" yarışları daha baxımlı olur. Bakı şəhər halqası ilə yanaşı, Sinqapur, Monako və Montsa Qran-priləri də unikallığı ilə seçilir. 2020-ci ildə şəhər traslarında təşkil olunan yarışlara daha biri - Vyetnam Qran-Prisi də əlavə olunacaq. Bu tipli yarışlarda şəhərin enerjisi və "Formula-1" sevərlərin azarkeşliyi yarışla vəhdət təşkil edir", - deyə Ç.Keri əlavə edib.

İmzalanmış yeni müqavilənin əhəmiyyətini yüksək qiymətləndirən gənclər və idman naziri Azad Rəhimov qeyd edib ki, Azərbaycan Qran-Prisi yerli şirkətlər üçün yeni imkanlar açır. Onların beynəlxalq arenaya inteqrasiyası üçün bu yarış çox əlverişlidir. Dənizkənarı Milli Parkda yaradılan "F1 Şəhərciyi"ndə şirkətlər öz stendlərini yerləşdirir, məhsullarını təbliğ edir, həmçinin yeni əməkdaşlıqların qurulması istiqamətində addımlar atırlar.

"Gələcəkdə Azərbaycan pilotlarının da "Formula-1"də iştirak etmələri mümkündür. Hazırda ölkəmizdə idmançıların yetişməsi üçün kartinq fəaliyyət göstərir. Həmçinin Azərbaycan Avtomobil Federasiyası da bu istiqamətdə işlər aparır", - deyə nazir diqqətə çatdırıb.

# Azərbaycan öz inkişafının yeni mərhələsinə qədəm qoyub

Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının sədr müavini-icra katibi Əli Əhmədov:

## "Prezident İlham Əliyevin müəllifi olduğu davamlı islahatlar konsepsiyası Azərbaycanın sosial-iqtisadi yüksəlişinə böyük təkan verəcək, qlobal əhəmiyyətini daha da artıracaq"

*Əvvəli 1-ci səh.*

Beynəlxalq miqyasdakı mövqelərimizin möhkəmlənməsi iqtiqamətində də çox ciddi nailiyyətlər əldə olunub. Azərbaycan artıq bütün dünyada birmənalı şəkildə özünü ifadə etməyi bacaran dövlət kimi qəbul olunur. Rəsmi Bakının sözü, mövqeyi dünyada qəbul olunur, etiraf edilir. Bu, respublikamızın dünya birliyində nüfuzunun artması, eyni zamanda, həyata keçirilən islahatların öz nəticələrini verməsi ilə əlaqədardır. Azərbaycan dünyanın iqtisadi cəhətdən ən liberal və islahatlara açıq ölkələrindən biri sayılır. Hesab edirəm ki, bu istiqamətdə əldə etdiyimiz nailiyyətlərin göstəricilər baxımından böyük qiymətinin olduğunu vurğulamaq olar.

Azərbaycan dünyanın enerji ehtiyaclarının ödənilməsində getdikcə rolunu da artırır. İndi ölkəmizi Avropanın enerji təhlükəsizliyinin təmin edilməsindən ayrılıqda təsəvvür etmək mümkün deyil. Ölkəmizin bilavasitə iştirakı və cənab Prezidentin təşəbbüsü ilə həyata keçirilən enerji layihələri Avropanın, əslində dünyanın enerji təhlükəsizliyinin təmin edilməsində ən vacib layihələr kimi qiymətləndirilə bilər. Bu layihələrin əhəmiyyətli hissəsi artıq işə düşüb və praktikada öz müsbət nəticələrini göstərməkdədir.

Eyni sözləri Azərbaycanın nəqliyyat dəhlizi kimi artıq özünü ifadə etməsi barədə də söyləmək olar. Respublikamızın böyük və tarixi İpək yolu layihəsinə qoşulması, onun əhəmiyyətli hissəsi ilə əlaqədar nəqliyyat xətlərinin çəkilməsində iştirak etməsi dediklərimizin əyani sübutudur. Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi Şərqdən, Çindən başlayaraq Avropaya gedən böyük İpək yolunun əhəmiyyətli hissəsini təşkil edir. Bundan əlavə, ölkəmizin Şimal-Cənub istiqamətində vacib nəqliyyat qovşağı kimi formalaşması ilə bağlı layihələr həyata keçirilir. Bütün bunların hamısı tək Azərbaycanın nəqliyyat dəhlizi kimi mövqelərinin möhkəmləndirilməsi kimi təsəvvür edilə bilməz. Bu, eyni zamanda, regionun, bizi əhatə edən coğrafiyanın iqtisadiyyatına, nəqliyyat kommunikasiyasının inkişafına Azərbaycan tərəfindən verilən töhfədir. Beləliklə də bunlar respublikamızın mövqelərini möhkəmləndirir, etibarlı tərəfdaş kimi hörmət və ehtiramını artırır.

Bu uğurların ümumi ifadəsi Azərbaycan vətəndaşlarının öz dövləti ilə qürur duyması, fəxr etməsidir. Bu gün vətəndaşlarımız sözün əsl mənasında onunla iftixar duyurlar ki, qüdrətli, güclü, möhtəşəm bir dövlətin vətəndaşıdırlar. Bu, bir yandan dövlətimizin gücünün artması, digər tərəfdən vətəndaşlarımızın həyatında baş verən dəyişikliklərlə bağlıdır. İnsanlar ölkədə baş verən dəyişiklikləri ümumi dəyərləndirmə prizmasından başqa, şəxsi dəyərləndirmə prizmasından da qiymətləndirirlər. Azərbaycan vətəndaşlarının həyatı dəyişir, sosial rifahı daha da yüksəlir. Təbii ki, ötən il də vətəndaşlarımızın sosial həyatında baş verən müsbət keyfiyyət dəyişiklikləri ilə əlamətdar oldu.

Beləliklə, 2018-ci il Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi altında illərdir davam edən inkişaf salnaməsinin çox vacib bir səhifəsini təşkil edir. 2018-ci ildə əldə edilmiş nailiyyətlər əsasında qədəm qoyduğumuz 2019-cu ildə də həm iqtisadiyyatının daha da yüksəlməsinin şahidi olacağıq, həm də dünya miqyasında Azərbaycanın bir dövlət olaraq qüdrətinin güclənməsini müşahidə edə biləcəyik.

*- Qeyd etdiyiniz kimi, 2018-ci ilin ən mühüm siyasi hadisəsi prezident seçkiləri oldu. Bu seçki nəyin göstəricisi oldu və ölkəmizin siyasi həyatında hansı məqamları ilə yadda qaldı?*

- Hər bir ölkənin inkişafı onun siyasi sabitliyi və siyasi münasibətlərin ahəngdarlığı ilə bilavasitə əlaqədardır. 2018-ci ilin ümumi ictimai-siyasi hadisələrini qiymətləndirərkən aprel ayında keçirilmiş prezident seçkilərini və onun nəticələrini qeyd etməmək mümkün deyil.

Bu seçkidə YAP-ın namizədi olan cənab İlham Əliyev 86 faizdən çox səs toplayaraq yenidən Prezident mandatını qazandı. Bu, cənab İlham Əliyevin ölkə Prezidenti vəzifəsinə dördüncü dəfə seçilməsi idi. Ayrı-ayrı ölkələrin və bütövlükdə dünyanın siyasi inkişafının tendensiyaları ondan ibarətdir ki, hakimiyyət yaşlaşdıqca insanların ona münasibətində bir uyğunlaşma və bundan əmələ gələn yorğunluq müşahidə olunur. Biz bunu müxtəlif ölkələrdə hakimiyyətdə olaraq inkişafa böyük töhfələr vermiş insanlara olan münasibətdə də görürük. Ancaq ölkəmizdə 2018-ci il prezident seçkilərini fərqləndirən cəhət ondan ibarətdir ki, bu seçki cəmiyyətin hakimiyyətə böyük etimad göstərdiyini sübut etməklə yanaşı, əvvəldə qeyd etdiyim və müəyyən mənada sosioloji qanunauyğunluğa çevrilmiş meylin Azərbaycanda tam əksinin formalaşdığını göstərdi. Bəli, vətəndaşlarımız Prezident İlham Əliyevə etimad göstərməkdə davam edirlər.

Bu, İlham Əliyevin 15 ildən artıq davam edən prezidentlik fəaliyyətinin ən vacib nailiyyətlərindən biridir. Bunun səbəblərini araşdırmağa çalışsaq, ortaya hansı həqiqətlər çıxar? - Niyə İlham Əliyevə vətəndaşların bu qədər böyük inamı var?

Bu onunla əlaqədardır ki, Azərbaycan İlham Əliyevin rəhbərlik etdiyi 15 il ərzində sürətlə inkişaf edib, böyük nailiyyətlər qazanıb. Ölkədə möhtəşəm dəyişikliklər baş verib. Bu dəyişikliklər təkcə iqtisadiyyatın artımı, infrastrukturun yenilənməsi, şəhər və kəndlərin abadlaşması, yeni yolların, körpülərin, əzəmətli binaların tikilməsi ilə yekunlaşmır. Baxmayaraq ki, sadalanan bu nailiyyətlərin özü də istənilən iqtidara kifayət qədər böyük inam və etimad göstərilməsi üçün ciddi əsaslardır. Dəyişikliklərin əhəmiyyətli hissəsi insanlarımızın həyat səviyyəsinin yüksəlməsi ilə bağlıdır. Biz əgər Azərbaycan vətəndaşlarının həyat səviyyəsini 2003-cü illə müqayisə etməyə çalışsaq, 2018-ci ildən baxdıqda, möhtəşəm dəyişikliyin şahidi olarıq. Təbii ki, bu dəyişikliklərin nə qədər əzəmətli olduğunu hamıdan yaxşı elə insanların özləri bilir. Çünki yüksəliş onların həyatında, məişətində, güzəranında baş verir. Buna görə həyatında, güzəranında bu qədər böyük yüksəlişi müşahidə edən və yaşayan insanların bu dəyişiklikləri ona vermiş iqtidara, iqtidarın başında duran insanlara etimad və rəğbət bəsləməsi tamamilə məntiqəuyğundur və başadüşüləndir.



Digər tərəfdən, İlham Əliyev hakimiyyəti Azərbaycanda ictimai-siyasi sabitliklə birmənalı şəkildə sarsılmaz şəkildə başa düşülür. Bu gün İlham Əliyev dedikdə, onun hakimiyyəti dedikdə təhlükəsizlik və əmin-amanlıq gözlərimizin önündə canlanır. Bizi əhatə edən, o qədər də uzaqda olmayan dövlətlərdə baş verən qanlı toqquşmalar, qarşıdurmalar, insanların faciəsi fonunda Azərbaycandakı təhlükəsizlik Prezident İlham Əliyev tərəfindən insanlarımıza nə qədər böyük bəxtəvərliyin bəxş edildiyini aydın surətdə göstərir. Hər gün kütləvi informasiya vasitələrində ayrı-ayrı ölkələrdə baş verən hərbi-siyasi fəlakətləri izləyirik. Bu təlatümlü dünyada, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, təhlükəsizlik adasına bənzədilən Azərbaycanda yaşamaq, sözün həqiqi mənasında, xoşbəxtlik və firavanlıqdır. İnsanlar nəinki özləri üçün təhlükə görmürlər, eyni zamanda övladlarının gələcəyi ilə bağlı nigarançılıq və narahatlıq keçirmirlər. Ona görə bunun iqtidara etimad və etibar göstərmək baxımından əhəmiyyətini təsəvvür etmək o qədər də çətin deyil.

İnsanlar bu əmin-amanlığa və təhlükəsizliyə görə Prezident İlham Əliyevə minnətdardırlar. Çünki sabitliyin olmadığı yerdə istənilən var-dövlət və digər ona bənzər kateqoriyalar öz əhəmiyyətini itirir. İnsanın həyatından yüksək bir dəyər təsəvvür etmək mümkün deyil. İnsanın təhlükəsizliyindən daha əhəmiyyətli reallıq düşünmək mümkün deyil. Prezident İlham Əliyev ilk növbədə insanlar üçün bu yüksək reallıqları təmin edib. Amma qeyd etdiyim kimi, insanlar təkcə təhlükəsizlik şəraitində yaşamırlar. Eyni zamanda, bu əmin-amanlığı böyük dəyərə çevirən həyat tərzinin yüksək olması, vətəndaşların ehtiyaclarının ödənilməsi və bunun üçün dövlətin hər bir addımı atmağa hazır olması da cəmiyyətin hökumətdən və hakimiyyətdən məmnunluq səviyyəsini yüksəldən amildir.

Bütün bunların hamısının fonunda 2018-ci ilin aprel ayında keçirilən prezident seçkiləri yüksək fəallıq şəraitində baş tutdu. Seçkilərin nəticəsi İlham Əliyevin yüksək faizlə qalib gəlməsində ifadə olundu. 86 faiz səs artıq neçənci dəfədir keçirilən prezident seçkilərində qalib gələn şəxs üçün böyük göstəricidir. Və bu göstərici seçicilərimiz tərəfindən Prezident İlham Əliyevə münasibətdə ifadə olundu.

Prezident seçkilərinin yüksək fəallıq şəraitində keçirilməsində İlham Əliyevin partiyası - Yeni Azərbaycan Partiyası böyük fədakarlıq göstərdi. YAP-ın bütün üzvləri seçki kampaniyasının yüksək şəraitdə keçirilməsi üçün əllərindən gələni etdilər. Xüsusilə partiya gənclərini qeyd etmək istəyirəm. Seçki kampaniyasının bütün mərhələlərində, istənilən seçki hərəkatının həyata keçirilməsində gənclər yaxından iştirak etdilər, təbliğat və təşviqat aparılmasında fədakarlıq göstərdilər. Beləliklə, seçki kampaniyasının bütövlükdə bir proses olaraq möhtəşəmliyinin təmin edilməsində, yüksək fəallıq şəraitində keçirilməsində YAP-ın hər bir üzvünün əməyi mühüm rol oynadı.

Hər bir seçki ölkədəki ictimai-siyasi münasibətlərin ahəngdarlıq dərəcəsini müəyyənləşdirən əhəmiyyətli barometrlərdən biridir. Sevindirici haldır ki, Azərbaycanda prezident seçkiləri sabit, sakit şəraitdə keçdi və baş tutdu. Bu onunla əlaqədardır ki, birincisi, insanlar ölkədə qərar tutmuş təhlükəsizliyi və əmin-amanlığı yüksək qiymətləndirir və onun pozulmasına heç bir vəchlə imkan vermək niyyətində deyillər. İkinci təfərdən, seçkilər ərəfəsində ölkədəki ictimai-siyasi ab-hava bundan ibarət idi ki, insanlar İlham Əliyevin timsalında öz namizədlərini müəyyənləşdirmişdilər və başqa namizəd axtarmaq fikrində deyildilər. Bu da prezident seçkilərinin müsbət axarda keçməsinin səbəblərindən biri kimi qiymətləndirilə bilər.

Prezident seçkiləri artıq arxada qalıb. Azərbaycan bu seçkidən sonra ictimai, siyasi və iqtisadi baxımdan yeni mərhələyə qədəm qoyub. İslahatlar strategiyası uğurla və ardıcıl surətdə davam etdirilir. 2018-ci ilin seçkilərində İlham Əliyevə səs vermiş insanlarımız özlərinin doğru seçimlərinin nə qədər düzgün olduğunu növbəti illər ərzində bir daha görəcəklər. Prezident İlham Əliyevin rəhbərliyi altında növbəti illərdə Azərbaycan daha da inkişaf edəcək, ölkəmiz daha da qüdrətlənəcək. Ən başlıcası, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində qətiyyətli siyasət davam etdiriləcək. Problemin Azərbaycanın pozulmuş hüquqlarının bərpa olunması formasında həlli üçün Prezident İlham Əliyevin yürütdüyü siyasət çox ciddi əsaslar yaradır. İndi Azərbaycan nəinki özünü qorumağa qadirdir, eyni zamanda lazım gəldiyi anda bütün hüquqlarını bərpa etməyə hazırdır. Bizim qüdrətli ordumuz var. Bir neçə nümunə əsasında əminliklə deyə bilərik ki, bu ordu pozulmuş ərazi bütövlüyümüzü qısa zamanda bərpa etməyə qadirdir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan hələlik danışıqlar prosesinə üstünlük verir. Bu danışıqlar ölkəmizin getdikcə güclənən iqtisadi, siyasi, hərbi qüdrəti fonunda öz niyyət və məqsədinə nail olacaq.

> Azərbaycan İlham Əliyevin rəhbərlik etdiyi 15 il ərzində sürətlə inkişaf edib, böyük nailiyyətlər qazanıb. Ölkədə möhtəşəm dəyişikliklər baş verib. Bu dəyişikliklər təkcə iqtisadiyyatın artımı, infrastrukturun yenilənməsi, şəhər və kəndlərin abadlaşması, yeni yolların, körpülərin, əzəmətli binaların tikilməsi ilə kifayətlənmir. Baxmayaraq ki, sadalanan bu nailiyyətlərin özü də istənilən iqtidara kifayət qədər böyük inam və etimad göstərilməsi üçün ciddi əsaslardır.
>
> Dəyişikliklərin əhəmiyyətli hissəsi insanlarımızın həyat səviyyəsinin yüksəlməsi ilə bağlıdır. Biz əgər Azərbaycan vətəndaşlarının həyat səviyyəsini 2003-cü illə müqayisə etməyə çalışsaq, 2018-ci ildən baxdıqda, möhtəşəm dəyişikliyin şahidi olarıq. Təbii ki, bu dəyişikliklərin nə qədər əzəmətli olduğunu hamıdan yaxşı elə insanların özləri bilirlər. Çünki yüksəliş onların həyatında, məişətində, güzəranında baş verir.
>
> Buna görə həyatında, güzəranında bu qədər böyük yüksəlişi müşahidə edən və yaşayan insanların bu dəyişiklikləri ona vermiş iqtidara, iqtidarın başında duran insanlara etimad və rəğbət bəsləməsi tamamilə məntiqəuyğundur və başadüşüləndir.

*- Ölkədə aparılan islahatlara toxundunuz. 2019-cu ilin ilk günlərindən Prezident İlham Əliyevin islahatlar və sosial rifah konsepsiyası yeni mərhələyə qədəm qoyub. Bu sahədə həyata keçirilən tədbirləri necə qiymətləndirirsiz?*

- Ölkə, cəmiyyət inkişaf etdikcə bu inkişafın yeni mərhələyə çıxması ehtiyacı yaranır. Azərbaycan 1993-cü ildən bu yana davamlı inkişaf etməyə başlayıb. Müxtəlif mərhələlərdə qarşıya qoyulan vəzifələr həll olunub. Sonra daha yeni vəzifələr ortaya çıxıb. Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmiz 2003-cü ildən sonrakı dövrdə daha sürətlə inkişaf edib. Bu inkişafın səbəbləri içərisində neft strategiyasının zəfər çalması nəticəsində əldə olunan gəlirlərdən səmərəli istifadəni ayrıca qeyd etmək lazımdır.

Ötən illərdə Azərbaycan neft amilinin əsasında inkişaf edərək bundan irəli gələn bütün vəzifələrin hamısını həyata keçirib. İnkişafla bağlı Prezident İlham Əliyevin qarşıya qoyduğu ən mühüm vəzifə isə qeyri-neft sektorunun inkişafıdır. Beləliklə, bir müddət əvvəl yeni islahatlar konsepsiyasının meydana çıxması qeyri-neft amilinin inkişaf etdirilməsi zərurəti ilə əlaqədar idi. Əsas vəzifə Azərbaycanın neft amilinin asılılığından xilası, həmçinin inkişafı şaxələndirmək əsasında iqtisadiyyatın bütün sferalarının ahəngdar yüksəlişini təmin etmək idi. Bu mənada dərin iqtisadi islahatlar konsepsiyasının əsas hədəfi qeyri-neft sektorunun inkişaf etdirilməsinə hesablanmışdı. Son illərin gerçəkliyi ondan ibarətdir ki, qeyri-neft sektoru həqiqətən islahlatlar konsepsiyasının reallaşması nəticəsində sürətlə inkişaf etməyə başladı. Biz iqtisadi inkişafımızı nəzərdən keçirsək görərik ki, bu inkişafda qeyri-neft sektorunun və sənayenin yüksəliş templəri kifayət qədər yüksəkdir. Buradan çıxan nəticə ondan ibarətdir ki, ölkənin inkişafında neft sektorunun rolu azalır, qeyri-neft sektorunun payı sürətlə artır. Onu da əlavə edim ki, Azərbaycanın son 20-25 il ərzində inkişafına 250 milyard dollar investisiya yatırılıb. Bu, adambaşına 10 min dollar investisiya deməkdir. Bu, sözün əsl mənasında dünyada ən böyük göstəricilərdən biridir.

Təbii ki, islahatlar yalnız bununla məhdudlaşa bilməz. İndi islahatların yeni mərhələyə çıxdığını müşahidə edirik. Bu gün idarəetmə sahəsində islahatların həyata keçirilməsi zərurəti yaranıb. Cənab Prezident dövlət orqanlarında idarəetmənin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması üçün müvafiq fərmanlar imzalayıb. İnanıram ki, bununla əlaqədar həyata keçirilən tədbirlər nəticəsində çox qısa zamanda Azərbaycanın idarəçilik sistemi də çox ciddi şəkildə təkmilləşəcək. Ən müasir idarəetmə sistemi ölkəmizdə qərar tutacaq.

İqtisadiyyatın yenilənməsi, onun ayrı-ayrı sahələrinin inkişafı üçün böyük sərmayələrin qoyulması və dövlət tərəfindən onlara dəstək verilməsi, eyni zamanda bütün bunların nəticəsi kimi idarəetmənin təkmilləşdirilməsi Azərbaycanda bitkin, bir-birini tamamlayan mütərəqqi islahatlar konsepsiyasının həyata keçirildiyini göstərir.

Prezident İlham Əliyevin müəllifi olduğu davamlı islahatlar konsepsiyası Azərbaycanın sosial-iqtisadi yüksəlişinə böyük təkan verəcək, qlobal əhəmiyyətini daha da artıracaq.

*- Son vaxtlar müxalifətin radikallaşması hiss olunur. Buna səbəb nədir və onların müşahidə etdiyimiz qanunsuz cəhdləri perspektivdə nə vəd edir?*

- Demokratiya müxalifəti vacib amil kimi nəzərdə tutur. Biz bunu həm qəbul edirik, həm də Azərbaycanda demokratiya tam bərqərar olduğundan müxalifətin mövcudluğu da qaçılmazdır. Amma təəssüf doğuran gerçəklik ondan ibarətdir ki, Azərbaycanda özünü müxalifət hesab edən bəzi partiyaların fəaliyyəti ötən əsrin 90-cı illərinin əvvəllərinin, başıpozuqluq dövrünün qalıqları şəklində təzahür edirir. Bu da, təbii ki, təəssüfləndiricidir.

Azərbaycanda 1993-cü ildən bu yana, Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bugünə qədər davam edən böyük dəyişikliklər baş verib. 90-cı illərin əvvəlləri ilə müqayisədə dəyişməyən heç nə qalmayıb. Ölkənin siması dəyişib, infrastrukturu yenilənib, Bakının və regionların siması müasirləşib, insanlarımızın həyat səviyyəsi yüksəlib. Eyni zamanda, Azərbaycan dövlət olaraq güclənib, qüdrəti artıb, dünyada mövqeləri möhkəmlənib, regionun liderinə çevrilib. İnsanlarımızın da təfəkküründə bu illərdə dəyişikliklər baş verib. Çünki həyatda baş verən yeniliklər istər-istəməz düşüncələrdə, təsəvvürlərdə öz əksini tapır. Amma bir şey Azərbaycanda dəyişməyib: bu da ölkəmizdəki özünü müxalifət hesab edən bəzi partiyalardır. Ona görə biz onları öz simalarına uyğun haqlı olaraq qaragüruhçu adlandırmaq zorundayıq. 90-cı illərin əvvəllərinin başıpozuqluq dövründə formalaşmış həmin müxalifət o vaxt necə qaragüruhçu idisə, indi də elədir! Bu günə qədər dəyişməyiblər!

Beləliklə, Azərbaycanın demokratik quruluşu ilə bu quruluşun vacib tərkib hissəsi olmalı olan müxalifətin müəyyən qismi arasında böyük təzad var. Bir yanda normal cəmiyyət, demokratiya və demokratik təsisatlar, digər yanda isə normal adlandırılması mümkün olmayan başıpozuq müxalifət. Bizim siyasi həyatımızın narahatlıq yaradan ən böyük problemlərindən biri məhz budur. Həmin müxalifət ölkənin inkişafından faydalanmaq, ən azından öz siyasi mübarizələrindən bəhrələnmək əvəzinə qıcıqlanırlar. Onların məfkurəsində müxalifətə başucalığı gətirməyən bir şüar meydana gəlib: ölkə üçün nə qədər pis olarsa, müxalifət üçün o qədər yaxşıdır. Deməli, Azərbaycanın inkişafı, yüksəlişi, insanların rifahının yaxşılaşmasını onlar əslində pis qarşılayırlar. Həmin müxalifət arzulayır ki, Azərbaycan inkişaf etməsin, insanların sosial rifahı aşağı olsun və yaranan çətinliklərdən öz çirkin məqsədləri üçün istifadə etsinlər. Onların davranışlarının Azərbaycanın ümumi demokratik ab-havasına uyğun gəlməməsinin kökündə dayanan budur.

Lakin belə müxalifət yeni əhvali-ruhiyyə şəraitində yaşayan bir cəmiyyətlə ahəngdarlıq təşkil edə bilməz. Onlar getdikcə daha da marginallaşıb və simalarını itiriblər. Ona görə çıxış yolunu cəmiyyətdə gərginlik yaratmaqda görürlər. Aydın şəkildə dərk edirlər ki, təhlükəsizliyin, əmin-amanlığın, iqtisadi inkişafın, rifahın yüksəlişi fonunda özlərinin bu şəraitə uyğun gəlməyən platformaları ilə insanları öz tərəflərinə çəkmək iqtidarında deyillər! Bu, onlar üçün vahimədir. Vəziyyətdən çıxış yolunu cəmiyyəti gərginləşdirməkdə, qarşıdurma yaratmaqda görürlər. Bunun üçün keçirdikləri mitinqlərdən faydalanmağa çalışırlar.

Dövlət mitinqlərin keçirilməsinin əleyhinə deyil. Amma bu mitinqlər vətəndaş itaətsizliyinə çağırışla müşayiət olunursa, yaxud dövlət və konstitusion quruluşun əleyhinə çağırışlar səsləndirilirsə, demək, həmin mitinqlərin məqsədi qarşıdurma və gərginlik yaratmaq niyyətlərinə xidmət edir. Digər yandan, həmin müxalifət ölkəmizin reallıqlarına böhtan atmaqla insanların təsəvvürlərini dəyişmək istəyir. Yalan və iftira yolu ilə insanları aldatmağa çalışırlar.

Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, sosial şəbəkələr yalan yaymaq və böhtan atmaq imkanlarını onlar üçün təmin edir. Qaragüruhçu müxalifət və bu gün Avropada antiazərbaycançı şəbəkənin buyruq quluna çevrilmiş sapı özümüzdən olan baltalar bu imkanlardan sui-istifadə edərək Azərbaycanın mövcud reallıqlarını təhrif edirlər. Amma bunun da bir fayda vermədiyini görürlər. Çünki neçə ildir yalan, böhtan atmaqla insanların düşüncələrini zəhərləmək niyyətlərinin baş tutmadığını anlayırlar. Belə olan halda daha mənəviyyatsız addımlara əl atır, insanlara qarşı mənəvi terror həyata keçirirlər. Ləyaqət və etika anlayışı ilə bir araya sığmayan ifadələr işlədərək ayrı-ayrı insanları mənəvi terrora məruz qoymaqdan ibarət bir yol seçiblər. Ləyaqətli insanlara, Azərbaycan dövlətinə və onun başçısına qarşı mənəviyyatsız hərəkət edirlər.

Azərbaycana ləkə yaxmaq istəyənlər, ölkə rəhbərinə böhtan atanlar əslində vicdanlarını itirmiş ünsürlərdir. Bununla da onlar ölkə üçün əslində qara ləkəyə çevriliblər. Lakin bu cür ləyaqətsiz hərəkətlər insanların düşüncəsinə təsir etmək gücünə malik deyil. Çünki onların belə əməlləri sağlam düşüncəli hər kəsi qıcıqlandırır, qəzəbləndirir.

Onu da qeyd edim ki, bu təhqirlərə və mənəvi terrora bundan sonra da dözmək qeyri-mümkündür. Hesab edirəm ki, hüquqşünaslar, informasiya texnologiyaları sahəsində mütəxəssislər bu halların qarşısının alınması üçün düşünəcəklər və belə əməllərin təkrarlanmaması üçün bir yol tapılacaq.

Müxaləfətin azğınlaşmasının səbəblərindən biri də Azərbaycanın inkişafından qıcıqlanan və ölkəmizi gözü götürməyən qüvvələrin verdiyi sifarişlərin intensivliyinin artmasıdır. Bir sıra hallarda müxalifətin hərəkətləri kənardan Azərbaycana qarşı pozuculuq işləri aparan beynəlxalq mərkəzlərin fəaliyyəti ilə sinxronluq təşkil edir. Bir çox hallarda sifariş və tapşırıqlar xaricdən gəlir. Bunun üçün maddi vəsait də xaricdən göndərilir. Bütün bunlar insanları narahat etməyə bilməz. Çalışmalıyıq ki, Azərbaycanın inkişafından narahat olan və inkişafımızın qarşısını almağa çalışan qüvvələrlə qaragüruh müxalifət arasındakı əlaqələr sındırılsın.

Azərbaycan dövləti kifayət qədər güclüdür. Vətəndaşlar müxalifətin hansı niyyətlərlə fəaliyyət göstərdiyini aydın bilir və görürlər. Belə olan halda vicdanını itirmiş insanların istənilən təxribatçı hərəkətləri iflasa məhkumdur.

*- Bu il həm də bələdiyyə seçkiləri keçiriləcək. YAP seçki hazırlığına başlayıbmı və namizədlər hansı meyarlar əsasında müəyyən olunacaq?*

- 2019-cu ilin siyasi hadisələrindən biri dekabr ayında keçiriləcək bələdiyyə seçkiləri olacaq. YAP-ın seçkilərlə əlaqədar fəaliyyətinin çox mühüm xüsusiyyətlərindən biri ondan ibarətdir ki, biz seçkilərə vaxtında hazırlaşmağa başlamağa adət etmişik. Bunun nəticəsi olaraq seçkilərdə əldə etdiyimiz nailiyyətlər də adekvat olur. Bələdiyyə seçkilərinin başlamasına 10 aydan çox vaxt var. Amma YAP olaraq biz bu seçkilərə artıq başlamışıq. Artıq proqramımız müəyyən olunur, seçki kampaniyasının keçirilməsi üçün lazım olan resurslar dəyərləndirilir.

YAP-ın seçki kampaniyasının yüksək səviyyədə təşkil edilməsi ilə əlaqədar böyük təcrübəsi var. Partiyamızın bütün strukturları peşəkar seçki kampaniyasının təşkilatçılarına çevriliblər. Bir çağırışa çoxlu sayda üzvümüzü seçkilərin keçirilməsinə cəlb edə bilirik. Bu da onu göstərir ki, YAP sözün həqiqi mənasında mütəşəkkil qüvvədir, partiyada daxili nizam-intizam mövcuddur. YAP-da partiyaya sadiq olan insanlar cəmləşib. Onlar hər bir seçkinin partiyanın və ölkənin həyatı üçün nə qədər əhəmiyyət kəsb etdiyini başa düşürlər. Buna görə də ölkəmizin inkişafı naminə öz töhfələrini verirlər. Bütün bunlar hamısı məcmu halda YAP-ı böyük gücə çevirib. Bu qüvvə ilə istənilən seçkini yüksək səviyyədə keçirmək mümkündür.

Digər tərəfdən, YAP hər bir üzvünə öz imkanlarını ifadə etmək üçün lazım olan şəraiti təmin edir. Bu mənada bələdiyyə seçkiləri YAP tərəfindən üzvlərimizin ictimai-siyasi fəallığının inkişaf etdirilməsi üçün təkmil imkan kimi qiymətləndirilir. Çünki minlərlə insan bu seçkilərdə iştirak etmək imkanına malik olacaq, minlərlə insan bələdiyyə üzvü seçiləcək.

Təbii ki, seçkilərlə bağlı əsas işlər qarşıdadır. O ki qaldı namizədlərin müəyyən olunması məsələsinə, bu, sözün əsl mənasında ciddi prosesdir. Təbii ki, namizədlərimizi YAP-ın fəalları içərisindən müəyyənləşdirəcəyik. Onlar kifayət qədər peşəkar insanlar olmalıdır. Digər tərəfdən, çalışacağıq ki, namizədlərimiz arasında gənclər və qadınlar çoxluq təşkil etsin.

Bu gün bələdiyyə üzvü seçilmiş vətəndaş müəyyən müddətdən sonra Azərbaycanın siyasi həyatında daha yüksək səviyyədə iştirak etmək imkanlarına malikdir. Bu insanlar həmin bələdiyyə üzvlərinin içərisindən də seçiləcəklər. Ona görə də çalışacağıq ki, daha çox gənclərimiz bələdiyyə üzvü seçilsinlər və siyasi həyatımıza daha yaxından inteqrasiya etsinlər. Buna görə gənclər bələdiyyə seçkilərində namizəd olaraq fəal təmsil olunmalıdırlar. Eyni sözləri qadınlar barədə də demək olar. Azərbaycan qadınları ictimai-siyasi həyatda fəal iştirak edirlər. Biz onun tərəfdarıyıq ki, qadınlar ictimai-siyasi proseslərdə daha aktiv olsunlar. Bu meyarlar əsasında biz namizədlərimizi müəyyən etməyə çalışacağıq.

*- Bu ilin ən əlamətdar hadisələrindən biri də ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyə başlamasının 50-ci ildönümünün tamam olmasıdır. Yarım əsrlik bu epoxa Azərbaycan üçün nə deməkdir?*

- Müasir Azərbaycanın həyatında intensiv və davamlı dəyişikliklər 1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbərliyə başlaması ilə əlaqədardır. O dövrə qədər Azərbaycan keçmiş SSRİ daxilində ən geridəqalmış respublikalardan biri idi. Həm iqtisadi cəhətdən Azərbaycan inkişafdan qalmışdı, həm də ölkənin daxilində mənəvi-psixoloji durum ürəkaçan səviyyədə deyildi. Heydər Əliyev Azərbaycana rəhbərliyə başladıqdan qısa müddət sonra Azərbaycan iqtisadi cəhətdən sürətlə inkişaf etməyə başladı və SSRİ-nin ən inkişaf etmiş respublikalarından birinə çevrildi. Eyni zamanda ölkənin mənəvi-psixoloji durumu əhəmiyyətli dərəcədə dəyişdi. Xalqımızın özünü dərk etməsi, özünə inamı artdı. Milli təfəkkürümüzün inkişafında da Heydər Əliyevin hakimiyyətə gəlməsi mühüm rol oynadı. Bütün bunların hamısını təmin etməklə Heydər Əliyev əslində milli məfkurəni gücləndirdi.

Heydər Əliyev müdrik siyasətçi, görkəmli dövlət xadimi idi. Bu cür yüksək keyfiyyətlərinə və idarəçilik təcrübəsinə görə 1982-ci ildə SSRİ-nin rəhbərliyinə irəli çəkildi. Ulu öndər Moskvada işlədiyi illərdə də Azərbaycanın inkişafını diqqət mərkəzində saxlayırdı. Təəssüf ki, sonrakı dövrlərdə Heydər Əliyevin ictimai-siyasi proseslərdən kənarlaşdırılması nəticəsində Azərbaycan yenidən tənəzzülə uğradı. Xüsusilə 80-ci illərin sonu - 90-cı illərin əvvəllərində, dövlət müstəqilliyimizi bərpa etdikdən sonra da Azərbaycan ciddi tənəzzül yaşadı. Yenə də Heydər Əliyevin gəlişi ilə 1993-cü ildə Azərbaycan böyük fəlakətlərdən xilas oldu. Tənəzzül və geriləmə inkişafla əvəz olundu.

Beləliklə, Heydər Əliyevin adı tariximizə iki dəfə ölkəni xilas edən qüdrətli lider kimi yazılıb. Amma Heydər Əliyevin Azərbaycan tarixindəki rolu ölkəni məhv olmaqdan xilas etməklə bitmir. Ulu öndər eyni zamanda qurucu lider kimi özünü ifadə edib. Bu gün də Azərbaycanda Heydər Əliyev dövrü, Heydər Əliyev epoxası yaşayır. Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, əldə etdiyimiz bütün uğurlar Heydər Əliyev siyasətinin ardıcıl surətdə həyata keçirilməsinin nəticəsidir. Heydər Əliyev elə bir bünövrə yaradıb ki, onun üzərində indi çox qüdrətli Azərbaycan dövləti ucalıb. Məmnunluq hissilə qeyd etmək lazımdır ki, bu dövləti Heydər Əliyev siyasətini uğurla həyata keçirməklə ulu öndər siyasətinin ən layiqli davamçısı olan Prezident İlham Əliyev sürətlə inkişaf etdirir. Bu mənada Heydər Əliyev siyasəti, Heydər Əliyev epoxası davam etməkdədir. 1969-cu ildən başlayan bu epoxa ölkəmizə və xalqımıza layiqincə xidmət göstərir.

Heydər Əliyev epoxası müstəqil dövlətçilik və inkişaf deməkdir. Vətəndaşlar da bunu görür, dəyərləndirir və Prezident İlham Əliyevin ətrafında səfərbər olmaqla Heydər Əliyev epoxasını davam etdirirlər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## İtaliya mətbuatında Azərbaycanda aparılan islahatlardan bəhs olunub




İtaliyanın nüfuzlu "Agenzia Nova" xəbər saytında "Azərbaycanın gömrük sistemində aparılan islahatlar və fiskal siyasət uğurlu nailiyyətlər qazandırıb" sərlövhəli məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, yazıda Dövlət Gömrük Komitəsinin (DGK) sədri Səfər Mehdiyevin fikirlərinə istinad edilib.

Bildirilib ki, Azərbaycan ərazisindən keçən tranzit yüklərin nəqli üçün dəhlizlərin rəqabətqabiliyyətliliyi və səmərəliliyini artırmaq məqsədilə 2018-ci ildə başlanan islahatlar prosesi bu il də davam edəcək. Nəqliyyat və tranzit dəhlizlərinin yaradılması insan və malların daşınması çevikliyini təmin etmək, yüklərin çatdırılma müddətini minimuma endirmək və sərhəd keçidləri yaxınlığında prosesləri sürətləndirmək baxımından vacib prosedurdur.

Qeyd olunub ki, Azərbaycanda vergi siyasəti çərçivəsində həyata keçirilən və xüsusilə kölgə iqtisadiyyatına qarşı yönəlmiş islahatlar müsbət nəticələr verməkdədir.

Diqqətə çatdırılıb ki, Dövlət Gömrük Komitəsi 2018-ci ildə dövlət büdcəsinə 3,434 milyard manat köçürüb ki, bu da proqnoz tapşırığını 141 faiz üstələyib.

## Rusiya ilə dövlət sərhədi istiqamətində yeni avtomobil yolunun tikintisi sürətlənir

"Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin tərkib hissəsi olan M-1 Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 45-ci kilometrliyindən, H.Z.Tağıyev qəsəbəsindən başlayan və 92 kilometr uzunluğunda olan yol 1b texniki dərəcəyə uyğun inşa edilir.

4 hərəkət zolaqlı olacaq yolun hər bir zolağının və çiyinlərin eni 3,75 metr, ayırıcı zolağın eni 5 metr olmaqla yol yatağının eni 27,5 metr təşkil edəcək. Yola hər hansı maneənin çıxmasının qarşısını almaq məqsədilə körpü və birləşmələrin, alt keçid, suötürücü boruların, işıqlandırma işlərinin, ayırıcı zolaqda beton çəpərlərin, beton bordürlərin quraşdırılması, ekoloji və ətraf mühitin qorunması tədbirlərinin görülməsi və yolun hər iki tərəfdən çəpərlənməsi (təhkim zolağının eni 72,5 metr olmaqla) nəzərdə tutulur.

Layihələndirilən magistral yol əsasən yaşayış məntəqələrindən və sənaye müəssisələrindən kənar keçir. Əsas qəsəbə və rayon mərkəzlərindən isə magistrala giriş-çıxış yolları çəkiləcək. Tikiləcək yolun ətraf mühitə, o cümlədən faunaya mənfi təsirini azaltmaq məqsədilə heyvanlar üçün yolaltı keçidlərin tikintisi və səsboğucu qurğuların quraşdırılması nəzərdə tutulur.

Beton yolda yol geyiminin tikintisi işləri artıq yekunlaşmaq üzrədir. Belə ki, yol geyimi üst qatına qədər tikilib. Yeni layihələndirilən yolun isə 25-26,3-cü kilometrlik hissəsində hamarlayıcı lay, əsas lay və asfalt-beton örtüyün birinci qatı tikilib. Layihə üzrə nəzərdə tutulmuş suötürücü və ehtiyat boruların 305 poqonmetri artıq quraşdırılıb, kommunikasiya xətlərinin köçürülməsi isə 90 faiz yerinə yetirilib. Layihənin birinci mərhələsi üzrə işlərin fiziki tərəqqisi ümumilikdə 40 faiz təşkil edir.

✦ SOSİAL MÜDAFİƏ

## Kapital təyinatını dəyişir

**İnsan şüurlu həyata qədəm qoyandan yaxşı yaşamaq istəyir və burada qeyri-adi heç nə yoxdur. Elə dünyada istiqamətindən və sahəsindən asılı olmayaraq baş verən bütün hadisələr də ya dolayısı, ya da birbaşa yaxşı həyat uğrunda gedən mübarizələrdən ibarətdir. Hətta həmin mübarizələri müxtəlif adlarla pərdələmək istəsələr belə, bu gün hamıya gün kimi aydındır ki, "dava yorğan üstədir".**



*Elə bu səbəbdən siyasi cəhətdən mütərəqqi ölkələrdə bütün iqtisadi imkanlar sonda əhalinin soasial müdafiəsinin gücləndirilməsinə, güzəranının yaxşılaşdırılmasına yönəldilir. Əks halda, maddi nemətlər uğrunda aparılan mücadilənin bir qara qəpik qiyməti olmazdı.*

*Azərbaycan da bu baxımdan mütərəqqi ölkələr sırasına daxildir. Hələ ölkədə neft bumu başlamamışdan əvvəl yeni dövlət başçısı seçilən İlham Əliyev dəfələrlə bəyan etmişdi ki, bizim məqsədimiz neft kapitalını insan kapitalına çevirməkdir. Bu isə o demək idi ki, nə ediriksə və nə edəcəyiksə, Azərbaycan vətəndaşı üçündür.*

*Həmin dövrdən ötən zaman göstərdi ki, Prezidentin bu sözləri arxasında konkret əməl, konkret nəticələr durur. 15 ilin nəticələrinə nəzər salaq: 2004-cü ildən ötən dövr ərzində Azərbaycanda maaşlar 7, pensiyalar 9 dəfə artıb, məcburi köçkünlər üçün 102 qəsəbə salınıb, bu hesaba 290 min soydaşımız evlə təmin olunub, şəhid ailələrinə 6600-dən çox mənzil, müharibə əlillərinə 6144 avtomobil verilib, ölkə üzrə qaz təchizatı 95, içməli su təminatı 70 faizə çatıb, 3200-dən çox məktəb binası, 640 tibb müəssisəsi tikilib, yaxud əsaslı təmir olunub, 15 min kilometr avtomobil yolu çəkilib, nəhayət, 2 milyondan çox iş yeri açılıb və s. Bunlar əhalinin sosial müdafiəsi sahəsində ölkəmizdə görülən işlərin kiçik bir hissəsidir, çünki onların hamısını sadalamaq sadəcə mümkün deyil. Bir də ki, hər gün gördüyümüzü və yaşadıqlarımızı sadalamağa heç ehtiyac da yoxdur.*

*Bəs Dövlət Statistika Komitəsinin hesabatında bu barədə hansı faktlar var? Hesabatda bildirilir ki, ölkədə pensiyaçıların sosial müdafiəsini gücləndirmək məqsədilə Prezidentin 2018-ci il 9 fevral tarixli sərəncamına əsasən, 2017-ci il üzrə orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun 2018-ci ilin 1 yanvar tarixinə bütün növ əmək pensiyalarının sığorta hissəsi indeksləşdirilərək artırılmışdır. Məlumat üçün bildirək ki, cari ilin əvvəlinə ölkədə pensiyaçıların sayı 1 milyon 299,5 min nəfər olmuşdur ki, bu da əhalinin 13,2 faizini təşkil etmişdir. Təyin olunmuş aylıq pensiyaların orta məbləği isə 222,6 manata çatmışdır.*

*Dövlət Statistika Komitəsinin ilkin məlumatına görə, cari ilin əvvəlinə 415,9 min nəfər sosial müavinət, 62,3 min nəfər Azərbaycan Respublikası Prezidentinin təqaüdünü almışdır. Ötən il birdəfəlik müavinət alanların sayı 90,1 min nəfər olmuşdur.*

*Hesabatda həmçinin bildirilir ki, ölkədə əhalinin sosial müdafiəyə ehtiyacı olan bütün təbəqələrinin (əlillərin, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olan 18 yaşadək uşaqların, Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak etdiyinə görə müharibə veteranı adı almış, 1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş, 20 Yanvar hadisəsi və Çernobıl qəzası zamanı əlil olmuş şəxslərin və s.-in) aldıqları müavinətlər ötən il martın 1-dən 10 faiz artırılmışdır.*

*Bundan əlavə, Prezidentin fərmanı ilə Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş və hərbi əməliyyatlar zamanı itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin hər birinə 11 min manat məbləğində birdəfəlik ödəmənin verilməsinə başlanılmışdır.*

*Ötən il həmçinin əhalinin müxtəlif təbəqələrindən olan şəxslərə verilən Prezident təqaüdləri artırılmışdır. Artım eləcə də fəxri adlara görə verilən təqaüdləri əhatə etmişdir.*

✦ QEYRİ-NEFT SEKTORU

## Üçqat səmərə



### Aqrar təyinatlı, ixrac imkanlı və əmək tutumlu - "Sumqayıt karbamid" zavodunun əsas üstünlükləridir

Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar məqsədyönlü və elmi araşdırmalar nəticəsində icra edilir. Məqsəd bu yolla ölkənin bütün sahələrinin paralel inkişafına nail olmaqdır. Həmçinin qeyri-neft sektorunda aparılan islahatlar zəncirvari şəkildə digər sahələrlə bağlanır. Məsələn, Prezident İlham Əliyevin yanvarın 16-da Sumqayıt Kimya Sənaye Parkında açılışında iştirak etdiyi "SOCAR karbamid" zavodu neft-kimya sənayesi ilə bağlı olsa da, istehsal edilən məhsulların təyinatı aqrar sektor üçündür.

Sumqayıt Kimya Sənaye Parkı sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura və idarəetmə qurumlarına malik olan müasir texnologiyaların tətbiq edildiyi istehsal sahəsidir. Burada rezidentlərin fəaliyyət göstərməsi üçün hər cür şərait yaradılıb. Sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən sənaye parkının ərazisində neft-kimya və digər prioritet sahələr üzrə rəqabətqabiliyyətli məhsulların istehsalı və emalı müəssisələri yaradılır.

Nəhəng infrastruktura malik Sumqayıt Kimya Sənaye Parkının baş planına əsasən, burada aqro və tibb kimyası, məişət kimyası, tikinti sənayesi kimyası, elektronika və avtomobil sənayesi kimyası, polimerlər və sənaye avadanlıqlarının istehsalı üçün nəzərdə tutulmuş müəssisələr fəaliyyət göstərəcək. Kimya sənaye parkında istehsal ediləcək məhsulların çeşidi genişdir. Başqa sözlə, parkın fəaliyyəti qeyri-kimya sənayesi sahələrinin inkişafına təkan verəcək səviyyədədir.

Müasir üslubda dizayn edilən və 21 hektar sahəni əhatə edən sosial zonada parkın rezidentləri üçün bütün imkanlar yaradılır. Burada 16 mərtəbəli inzibati bina, sərgi-konfrans kompleksi, peşə təhsil mərkəzi, laboratoriya binası, emalatxanalar, uşaq baxım mərkəzi, açıq və qapalı idman meydançaları, sağlamlıq mərkəzi, yataqxana kompleksi, həmçinin rezidentlər və işçilərə xidmət edəcək digər obyektlər fəaliyyət göstərəcək.

"SOCAR karbamid" zavoduna gəldikdə, müəssisənin istehsala başlaması azot gübrəsi idxalına ehtiyacı aradan qaldıracaq, ölkədən valyuta axını azalacaq. Müəssisə ildə 450 milyon kubmetr təbii qazdan xammal kimi istifadə etməklə 650-660 min ton karbamid məhsulu istehsal etmək gücünə malikdir. İstehsal olunan məhsulun 70 faizi ixrac üçün nəzərdə tutulub ki, bu da hər il ölkəyə 160 milyon dollara yaxın valyuta daxil olmasına imkan yaradacaq.

Qeyd etdiyimiz kimi, müəssisənin məhsulunun əsas təyinatı aqrar sektordur. Zavodda istehsal edilən karbamid gübrəsi ən yüksək azot tutumuna malikdir. Bu növ gübrə keyfiyyətli hesab olunur. Həmin məhsuldan istifadə kənd təsərrüfatında məhsuldarlığı yüksəldir. Hazırda aqrar sektorda həyata keçirilən islahatların məqsədi də torpaqdan səmərəli istifadə etməklə yüksək məhsuldarlığa nail olmaqdır. Bu o deməkdir ki, yeni müəssisənin fəaliyyəti kənd təsərrüfatında yeni nailiyyətlərin qazanmasına imkan yaradacaq.

Prezident İlham Əliyev müəssisənin açılışı mərasimində zavodun fəaliyyətə başlamasını yüksək qiymətləndirərək demişdir: "Ölkəmizdə ən müasir standartlara cavab verən gözəl böyük sənaye müəssisəsi yaradılmışdır. Bu zavod Azərbaycanda qeyri-neft sənayesi sahəsində həyata keçirilən ən böyük layihədir. Mənə verilən məlumata görə, zavodda ildə 650 min ton karbamid istehsal olunacaq. Onun böyük əksəriyyəti ixrac ediləcək. Eyni zamanda daxili tələbat ödəniləcək. Çünki biz bu günə qədər gübrələri xaricdən alırıq və bu məqsədlər üçün böyük həcmdə valyuta xərclənir... Bu zavodda yüzlərlə yeni iş yeri yaradılır. Mənə verilən məlumata görə, karbamid zavodunda 500 iş yeri yaradılacaq və burada işləyəcək insanların mütləq əksəriyyəti yerli vətəndaşlardır, onların əksəriyyəti gənclərdir".

Məlumdur ki, hər bir məhsulun xammalının ölkə daxilində olması onun maya dəyərini aşağı salır, iqtisadi səmərəliliyini artırır. Yeni zavodda xammal kimi ildə 450 milyon kubmetr təbii qazdan istifadə olunacaq. Bu günkü bazar qiymətləri ilə həmin qazın xarici bazara ixracı ölkəmizə 80 milyon dollar vəsait qazandırmağa imkan verəcəkdisə, ondan karbamid məhsulu hazırlamaqla 150-160 milyon dollar qazana biləcəyik. Bu da zavodun səmərəliliyini daha da artırır. Belə müəssisələrin yaradılması ümumi inkişafımıza təkan verməklə yanaşı, dünya bazarına məhsul ixrac etməklə valyuta qazanmaq imkanlarımızı artırır, ölkədə məşğulluğun təminatında mühüm rol oynayır.

***Rüstəm KAMAL***
***"Azərbaycan"***

## Azərbaycan sahibkarları beynəlxalq sərgiyə dəvət alıblar

Ölkəmizdə fəaliyyət göstərən sahibkarlar Özbəkistanda "Namanqan Gül Festivalı" çərçivəsində mayın 24-26-da Daşkənddə keçiriləcək "Flowers & Garden Expo Uzbekistan" beynəlxalq sərgisində iştiraka dəvət olunur.




Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasından bildirilib ki, sərgidə gül, bitki və toxumlar, gülçülük və dizayn, bağ dekorasiyası, bağ və çəmənlik dekorasiyası, bağ və landşaft, istixanalar, model bağlar, bağ alətləri və aksesuarları, dekorativ əşyalar və aksessuarlar nümayiş ediləcək.

Sərgi Özbəkistanın Kənd Təsərrüfatı Nazirliyi, Daşkənd şəhər rəhbərliyi, Özbəkistanın Gül Bağbanları Assosiasiyası, Özbəkistan Ticarət və Sənaye Palatasının, "UZEXPSERVICE" MMC və Namanqan şəhər rəhbərliyinin birgə təşkilatçılığı və Özbəkistan hökumətinin dəstəyi ilə təşkil olunacaq.

✦ DEMOQRAFİYA

## Azərbaycanda miqrasiyanın müsbət saldosu nədən qaynaqlanır

*Azərbaycanda əhali əsasən təbii yolla, yəni, yeni doğulanların hesabına çoxalır. Son illərdə artıma həm də buraya daimi yaşamağa gələnlərin sayı təsir edir. Belə ki, Azərbaycana köçüb gələnlərin sayı ölkəni biryolluq tərk edənlərin sayını bir neçə dəfə üstələyir.*

Statistikanı izləsək, deyilənlərin bir daha şahidi olarıq. 2012-ci ildə Azərbaycanda immiqrantların (ölkəyə yaşamağa gələnlərin) sayı 2200 nəfər olub. Emiqrantların (ölkədən köçüb gedənlərin) sayı isə cəmi 300 nəfər təşkil edib. Növbəti 2013-cü ildə Azərbaycana daimi yaşamaq üçün gələnlərin sayı digər ölkələrə gedənlərin sayından 4 dəfə çox olub. 2014-cü ildə Azərbaycana biryolluq 1900 nəfər gəlib və ölkəni birdəfəlik cəmi 800 nəfər tərk edib. 2015-ci ilə aid rəqəmlər isə müvafiq olaraq 2700 və 1600-dür. Bu tendensiya son 3 ildə də davam edib. Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən ötən ilin yanvar-noyabr ayları ərzində daimi yaşamaq üçün Azərbaycana 3103 nəfər gələn, Azərbaycandan isə 1558 nəfər gedən qeydə alınıb. Ölkə üzrə miqrasiya saldosu müsbət 1545 nəfər təşkil edib.

27-28 il əvvəl isə mənzərə bambaşqa idi. Yaşlı və orta nəsil 1990-cı illərin əvvəllərində kortəbii miqrasiyanın necə baş alıb getdiyini yaxşı xatırlayır. Əsas axın kəndlərdən idi. Kənd əhalisinin azaldığı statistikasız da aydın görünürdü. Çünki neçə-neçə insan bir parça çörək dalınca yad məmləkətlərə üz tutmuşdu. Çoxları ailələrini də götürüb özləri ilə aparmışdı.

Onları bəlkə heç qınamalı da deyildi. "Kəndli pambıq əksə də, əkməsə də, onu dolandıracağıq" deyərək ağlasığmaz vəd verən yalançı "rəhbərlər"in "fəaliyyət"i nəticəsində bölgələrə sükut çökmüşdü. Şəhərlərdə isə müəssisələrin işi dayanmış, istehsal sahələri dağıdılıb talan edilmiş, fəhlələr aylarla maaşsız qalmışdı. Belə hərc-mərclikdən çıxış yolunu çoxları baş götürüb ölkədən getməkdə görürdü. Odur ki, məcburiyyət qarşısında vətəni tərk edənlərin sayı ildən-ilə deyil, aydan-aya artırdı.

1993-cü ildə ölkəni birdəfəlik tərk edənlərin sayı 28 min 500 nəfərə çatmışdı. Azərbaycana köçüb gələnlərin sayı isə cəmi 16 min 200 nəfər idi. Həmin il xalqın təkidli tələbi ilə hakimiyyətə gələn ümummilli lider Heydər Əliyev bu dözülməz vəziyyətə son qoyulması üçün təxirəsalınmaz tədbirlər həyata keçirdi. Neft sənayesi dirçəldildi, "Əsrin müqaviləsi" imzalandı, sənaye müəssisələrinin əmək ahəngi özünə qaytarıldı.

Başqa bir əməli addım aqrar islahatların həyata keçirilməsi oldu. Nəticədə kəndli öz torpağının - öz taleyinin sahibi oldu. Bunlar aqrar sahədə işlərin getdikcə sürətlənməsinə, kənd təsərrüfatı məhsulları istehsalının artmasına, sahibkarlığın inkişafına yol açdı. Bu tədbirlər sonrakı illərdə davamlı surətdə inkişaf etdirilərək geniş vüsət aldı.



Vəziyyət tədricən yaxşılığa doğru dəyişməkdə idi. Məsələn, 2002-ci ildə Azərbaycanı tərk edənlərin sayı 4300 idisə, 2003-cü ildə xeyli azalaraq 3800 oldu. Bir il ərzində gələnlərin sayı isə iki dəfədən çox artdı. 2002-ci ildə Azərbaycana daimi yaşamaq üçün 1200 nəfər gəlmişdisə, 2003-cü ildə onların sayı 2500-ə çatdı.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkənin inkişafına yönəldilən dövlət proqramları, böyük layihələr həyata keçirildi. 2004-2008-ci, 2009-2013-cü və 2014-2018-ci illəri əhatə edən, regionların sosial-iqtisadi inkişafına yönəldilən 3 dövlət proqramının icrası sayəsində Azərbaycan başdan-başa yeni bir görkəm alaraq yaxşı mənada tanınmaz oldu.

Həmin proqramların ən önəmli bəhrələrindən biri də kənd yerlərində yaşayan əhalinin öz yurd-yuvasında bərqərar olmasıdır. Təsadüfi deyil ki, son 15 ildə ölkədə yaradılan 2 milyon iş yerinin böyük hissəsi bölgələrin payına düşür. Ənənəvi kənd təsərrüfatı sahələri bərpa edilib. Regionlarda çoxsaylı sənaye, o cümlədən emal müəssisələri açılıb. Sahibkarlığın inkişafına böyük dəstək verilir. Yaradılması nəzərdə tutulan 51 aqroparkdan 17-si artıq fəaliyyətə başlayıb. 15 ildə çəkilən 15 min kilometr avtomobil yolu kəndlə şəhər arasında əlaqəni genişləndirib, ümumən ölkə əhalisinin rahatlığını təmin edib.

Elektrik enerjisi qıtlığından yaşanan olaylar, kəndlərin, bəzən hətta şəhərlərin işığı fasilələrlə aldığı illər də yaddan çıxmayıb. Bu gün isə Azərbaycanın özü elektrik enerjisi ixrac edən ölkədir.

XX əsrin 90-cı illərinin əvvəllərində insanları kəndlərdən uzaqlaşdıran səbəblərdən biri - qazın olmaması idi. İndi qaz xətləri ən ucqar dağ kəndlərinə qədər uzanıb. Ölkədə qazlaşdırma 95 faizi ötüb. Bir çox içməli su və suvarma suyu layihələri gerçəkləşib.

İnsanın iş yeri varsa, güzəranı yaxşıdırsa, işığı, suyu, istiliyi boldursa, yolu rahatdırsa, o öz evindən, el-obasından uzağa gedən deyil. Azərbaycanda miqrasiyanın müsbət saldosunu şərtləndirən başlıca amillər də məhz bunlardır. Başqa sözlə, demoqrafiya istənilən ölkədə sosial-iqtisadi vəziyyətin göstəricilərindən biri sayılır. Miqrasiya isə əsas demoqrafik göstəricilərdən biridir və onun saldosunun müsbət olaraq qalması Azərbaycanda insanların xoş güzəranı ilə səciyyələnir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Mingəçevir SES-ə əlavə avtotransformator quraşdırıldı

"Azərenerji" ASC-nin İctimaiyyətlə əlaqələr və mətbuat mərkəzindən verilən məlumata görə, ASC enerji sisteminin "Reabilitasiya Proqramı" çərçivəsində "Mingəçevir" Elektrik Stansiyasında (ES) təmir-bərpa işləri həyata keçirir.

Stansiyada gərginliyi 220/110 kilovolt (kV), gücü 200 meqavolt amper (MVA) olan avtotransformator, onun 220/110 kV-luq hücrələri, açarları, ayrıcları qurlaşdırılıb. Kür çayının üstü ilə keçməklə 780 metr məsafədə yüksək gərginlikli 110 kV-luq elektrik xətti çəkilib və avtotransformatora qoşulub.

Eyni zamanda avtotransformator yeni müasir tipli rele mühafizəsi və avtomatikası sistemi ilə təmin edilib. Qeyd edək ki, 4 ildən artıq idi 220/110 kV hissəyə əlavə avtotransformator qoşulmadığından birinci avtotransformator fasiləsiz işləyir, qəza riskini artırır və onun üzərində əsaslı təmir-bərpa işləri aparmaq olmurdu. İndi isə yükü digər avtotransformatorun üstünə keçirməklə istənilən təmir işini başa çatdırmaq və fasiləsizliyi təmin etmək mümkündür.

Əlavə avtotransformatorun qoşulması ilə dayanıqlıq və etibarlılıq təmin olunub. Eyni zamanda əlavə avtotransformatorun qoşulması Mingəçevir və ətraf regionlarda elektrik enerjisinin keyfiyyətliliyinə də müsbət təsir göstərib".

***"Azərbaycan"***

# Daha bir karvan yola çıxdı, bu dəfə Binəqədinin qəsəbələrinə...

"Azərişıq" ASC Bakının Binəqədi rayonunun bir sıra qəsəbələrində elektrik enerjisi şəbəkəsinin yenidən qurulmasına başlayır. ASC-nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayevin bildirdiyinə görə, bu məqsədlə müasir KTM-lər (Komplekt Transformator Məntəqəsi), SİP-kabellər, elektrik dirəkləri və digər zəruri mal-materiallarla yüklənmiş avtomobil karvanları günorta saatlarında "Kənd Binəqədi", Sulutəpə, Xocasən və Biləcəri qəsəbələrinə yola salınıb.







T.Mustafayev bildirib ki, son illər həmin qəsəbələr sürətlə böyüyüb, çoxlu sayda yeni yaşayış məhəllələri salınıb. Lakin zəruri infrastruktur yaradılmadan həyata keçirilən kortəbii məskunlaşmanın nəticəsi olaraq bu ərazilərdə yaşayan sakinlərin elektrik enerjisi ilə təchizatında da problemlər yaranırdı. Çünki köhnə xətlər və transformatorlar abonentlərin sayının sürətlə artması nəticəsində yaranan ifrat yükləməyə davam gətirmirdi, habelə elektrik enerjisinin itkiləri artırdı.

T.Mustafayev deyib: "Bildiyiniz kimi, son illər Prezident İlham Əliyevin Azərbaycanda hər bir abonentin sutkanın 24 saatı boyu elektrik enerjisi ilə fasiləsiz təchiz olunmasına dair qarşıya qoyduğu vəzifələrə uyğun olaraq "Azərişıq" ASC tərəfindən həm ölkənin regionlarında, həm Bakı ətrafında yeni salınan qəsəbələrdə elektrik enerjisi şəbəkəsinin, demək olar ki, sıfırdan yenidən qurulması həyata keçirilir. Masazır, Məhəmmədi, Yeni Saray, Ceyranbatan və digər ətraf qəsəbələrdə işlər artıq yekunlaşıb. İndi isə Binəqədi rayonunun ərazisində yeni salınmış qəsəbələrin və məhəllələrin elektrik təchizatı şəbəkəsinin yenidən qurulmasına başlanılıb. Bu məqsədlə "Azərişıq" ASC-nin mərkəzi təchizat anbarından müasir avadanlıqlarla, zəruri mal-materiallarla yüklənmiş 12-yə qədər ağırtonnajlı yük maşını karvan şəklində həmin qəsəbələrə göndərilib".

"Azərişıq" ASC-nin mətbuat xidmətinin rəhbəri xatırladıb ki, bu, 2019-cu ilin tədbirlər planı əsasında həyata keçiriləcək yenidənqurma və təmir-tikinti işləri ilə bağlı yola salınan ikinci yük karvanıdır. Bundan əvvəl, yanvarın 30-da Aran Regional Enerji Təchizatı və Satışı İdarələrinin inzibati ərazilərindən Beyləqan rayonu ərazisinə yeni avadanlıqlar, mal-materialla yüklənmiş maşın karvanı yola salınmışdı.

***"Azərbaycan"***

# İqtisadi islahatlar həm də münbit investisiya mühiti formalaşdırır

Hər bir ölkədə dinamik inkişafın qorunub saxlanması, iqtisadi islahatların davamlılığının təmin edilməsi üçün kapital qoyuluşunun önəmli olması məlum faktdır. Dünya təcrübəsi göstərir ki, hətta inkişaf etmiş ölkələrdə belə investisiya yatırımı zəiflədikdə iqtisadi geriləmə və durğunluq baş verir. Bu səbəbdən bütün dövlətlər inkişaf dinamikasının qorunub saxlanması üçün kapital qoyuluşuna xüsusi diqqət yetirir.

Azərbaycan kimi inkişaf etməkdə olan və iqtisadi islahatlar aparan ölkələrdən ötrü isə sərmayə qoyuluşunun əhəmiyyəti daha çoxdur, ən azından islahatların davamlı olması üçün. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında sərmayə qoyuluşunun, o cümlədən özəl sektorun kreditləşməsinin əhəmiyyətini vurğulayaraq demişdir: "Bu il sahibkarlığın inkişafı ilə bağlı əlavə addımlar atılacaq. Bildirməliyəm ki, əvvəlki illərdə sahibkarlara 2,2 milyard manat məbləğində güzəştli kreditlər verilmişdir, keçən il isə 160 milyon manat. Sevindirici haldır ki, ayrılan kreditlər əvvəlcə verilmiş və sonra qaytarılan kreditlər hesabına ödənilir. Yəni büdcə bu məsələyə pul xərcləmir. Biz sahibkarlara hər il bu cür dəstək göstəririk və göstərəcəyik".

Ölkəmizdə aparılan iqtisadi islahatlar, sahibkarlığa verilən dövlət dəstəyi, münbit investisiya mühitinin formalaşması beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Dünya Bankının "Doing Business 2019" təhlilinə görə Azərbaycan dünyada 10 ən islahatçı ölkə sırasındadır.

Sözsüz ki, bu, ölkəmizdə aparılan islahatlara və şəffaf investisiya mühitinə verilən yüksək qiymətdir. Xüsusilə Azərbaycanda qeyri-neft sektoruna sərmayə yatırımının dinamikasının artması beynəlxalq maliyyə qurumları tərəfindən təqdir edilir.

Faktlara nəzər salaq: ötən il təkcə kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən sahibkarlara 370 milyon manat məbləğində subsidiya və güzəştlər edilib, Sahibkarlığın İnkişafı Fondunun xətti ilə 999 sahibkara 160 milyon manat güzəştli kredit ayrılıb, İpoteka və Kredit Zəmanəti Fondu isə ölkə bankları tərəfindən kreditləşdirilən 277 milyon manat məbləğində ipoteka kreditlərini yenidən maliyyələşdirib, həmçinin 17 milyon məbləğində kreditlə bağlı zəmanət dəstəyi göstərib. Bununla yanaşı, qeyri-neft məhsullarının ixracının təşviqi və stimullaşdırılması proqramı çərçivəsində sahibkarlara dövlət büdcəsindən 15 milyon ixrac təşviqi ödənilib.

Ölkə üzrə investisiya təşviqi proqramı, demək olar ki, bütün sahələri əhatə edir. Ötən il sosial, fiziki infrastruktur və digər investisiya təyinatlı layihələrin icrasına dövlət investisiya proqramı hesabına 5 milyard 64 milyon, Prezidentin Ehtiyat Fondu hesabına 301 milyon manat investisiya yatırılıb. Beləliklə, il ərzində bu iki mənbədən ölkə iqtisadiyyatına 5 milyard 365 milyon manat vəsait yönəldilib.

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, ötən il ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 17 milyard 238,2 milyon manat sərmayə yatırılıb. Həmin dövrdə neft sektoruna yatırılan investisiyaların həcmi azalsa da, qeyri-neft sektoruna yönələn vəsaitin məbləği 22, o cümlədən qeyri-neft sənayesinə qoyulan investisiyaların həcmi 23 faiz artıb. Digər bir fakt: keçən il yatırılan ümumi sərmayənin 46,7 faizi dövlət, 53,3 faizi qeyri-dövlət sektorunun payına düşüb. Eyni zamanda, daxili mənbələrdən əsas kapitala yönəldilən vəsaitin dəyəri ümumi sərmayənin 69,7 faizini təşkil edib. Hesabat dövründə əsas kapitala yönəldilən sərmayədə müəssisə və təşkilatların vəsaitləri 9 milyard 76,9 milyon, bank kreditləri 1 milyard 902,5 milyon, büdcə vəsaitləri 4 milyard 449,2 milyon, büdcədənkənar fondların vəsaiti 278,7 milyon, əhalinin şəxsi vəsaitləri 1 milyard 407,8 milyon, digər vəsaitlər isə 123,1 milyon manat olub.

Xarici sərmayəyə gəldikdə, bu sahədə də rəqəm az deyil - 5 milyard 222,1 milyon manat. Bu vəsaitin 82,6 faizi İngiltərə, Türkiyə, Malayziya, ABŞ, Yaponiya, İran, Rusiya, Çexiya və Norveç sərmayədarlarına məxsus olub.

***Rüstəm KAMAL, "Azərbaycan"***

# AZƏRTAC-ın fotoları İslam Əməkdaşlıq Təşkilatının Festivalında nümayiş etdirilir

Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) fotoları Misirin paytaxtı Qahirədə keçirilən İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Birinci Festivalı çərçivəsində təşkil edilən fotosərgidə nümayiş olunur.

Fevralın 9-dək davam edəcək sərgidə İƏT dövlətlərinin Xəbər Agentlikləri Birliyinin (UNA) İcraiyyə Şurasının üzvü olan AZƏRTAC-la yanaşı, digər üzv 21 xəbər agentliyi də iştirak edir.

Sərginin ziyarətçiləri Azərbaycanın tarixini, müasir memarlıq nümunələrini, turizm potensialını əks etdirən fotolarla tanış olurlar.

Sərgi bu gün Qahirə Opera Teatrında açılıb. "Bir millət, mədəniyyətlərin müxtəlifliyi" şüarı altında keçirilən festivalın açılış mərasimində 20-dən çox dövlətin nümayəndələri iştirak edib. Tədbirdə islam dünyasına öz töhfələrini vermiş bir sıra görkəmli xadimlərin xatirəsi anılıb.

Beş gün davam edəcək festival çərçivəsində mədəni tədbirlər, elmi seminarlar və müxtəlif təqdimatlar keçiriləcək. Silsilə tədbirlər Qahirə Opera Teatrında, əl-Hənacir İncəsənət Mərkəzində, Mədəniyyət üzrə Ali Şurada, Böyük İslam Muzeyində, Əmir Taz sarayında, Ərəb dövlətləri Liqasının binasında, əl-Əzhər əş-Şərifdə və digər yerlərdə təşkil ediləcək.

Festivalda bir sıra beynəlxalq islam təsisatları, o cümlədən Tarix, İncəsənət və Mədəniyyət Mərkəzi, Ticarətin İnkişafı üzrə İslam Mərkəzi, İslam Həmrəylik Fondu, həmçinin İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı və digər qurumlar təqdim olunacaq.


**Podratçı tərəflər adından operator kimi BP elan edir ki, D230 bloku üzrə kəşfiyyat işləri proqramı çərçivəsində seysmik tədqiqat işlərinin Ətraf Mühitə və Sosial-iqtisadi Sahəyə Təsirinin Qiymətləndirilməsi (ƏMSSTQ) sənədi hazırlanıb və dərc edilib**

Xəzər dənizinin Azərbaycan sektorunda Şimal Abşeron hövzəsində D230 blokunun birgə kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş 2018-ci ildə imzalanıb. ƏMSSTQ sənədinin layihə variantında kontrakt sahəsində aparılması planlaşdırılan üçölçülü seysmik tədqiqat işlərinin ətraf mühitə və sosial-iqtisadi sahəyə potensial təsirləri nəzərdən keçirilir və tövsiyə olunan təsirazaltma tədbirləri təsvir edilir.

Seysmik tədqiqatın 100-800 metr arasındakı su dərinliklərində 3200 kvadratkilometrlik ərazini əhatə edəcəyi gözlənilir.

Seysmik tədqiqat proqramının ümumi məqsədi Şimal Abşeron hövzəsində perspektiv strukturlar üzrə geofiziki məlumatlar toplamaq və karbohidrogenlər olan geoloji strukturları aşkar etməkdir.

ƏMSSTQ prosesinin məqsədi nəzərdə tutulan işlərdən yarana biləcək hər hansı mənfi ekoloji və sosial-iqtisadi təsirləri müəyyənləşdirmək və minimuma endirmək, mümkün olduqda isə aradan qaldırmaqdır.

Maraqlı tərəflərlə məsləhətləşmə ƏMSSTQ prosesinin mühüm elementidir. Maraqlı tərəflərin rəylərinin toplanması və sənədləşdirilməsi prosesi əsas maraqlı tərəflərin ümumi rəylərinin layihənin planlaşdırılmasında və ƏMSSTQ-də əks etdirilməsini təmin edir.

Sizi ƏMSSTQ sənədinin layihə variantına dair rəylərinizi və fikirlərinizi bildirməyə dəvət edirik.

Azərbaycan və ingilis dillərində sənədin tam layihə variantı və qısa xülasəsi hazırlanıb və BP-nin vebsaytında yerləşdirilib:
https://www.bp.com/en_az/caspian/sustainability/environment/env-and-social-documentation.html

**1 fevral 2019-cu il tarixdən etibarən bu sənədlərin nüsxələri ictimaiyyətin tanış olması üçün aşağıdakı ünvanlarda da yerləşdirilib:**

- BP-nin Xəzər Mərkəzi ofisinin qəbul şöbəsi: Neftçilər prospekti, 153
- M.F.Axundov adına Milli Kitabxana: Xaqani küçəsi, 29
- Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası: Hüseyn Cavid küçəsi, 31
- Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin kitabxanası: Azadlıq prospekti, 20
- Orxus İctimai Ekoloji İnformasiya Mərkəzi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi: Bəhram Ağayev küçəsi, 100a
- Bakı Kitab Mərkəzi: Üzeyir Hacıbəyli küç., 5; Qoqol küç., 2
- Libraf Kitab Mağazası: Hüseyn Cavid prospekti, 186 (Mirvari Park kompleksi, D Bloku)
- Bakı Ali Neft Məktəbinin kitabxanası: Bakı şəhəri, Səbail rayonu, Yeni Salyan şosesi, 3-cü km (Bakı Ali Neft Məktəbinin Kampusu)

Xahiş olunur öz rəy və təkliflərinizi BP-nin tələblərə riayət və icazələr üzrə qrup rəhbəri Səadət Qafarovaya göndərəsiniz:

e-poçt: esiafeedback@bp.com;
telefon: (012) 599 43 29 or (055) 2259013


# Ağdamda erməni silahlı birləşmələrinin artilleriya atəşi nəticəsində zərər dəymiş evlər bərpa olunur

Ağdam rayonunun təmas xəttinə yaxın olan yaşayış məntəqələrində erməni silahlı birləşmələrinin iriçaplı silahlardan və artilleriya qurğularından intensiv atəşə məruz qoyması nəticəsində zərər dəymiş 121 evin bərpası davam etdirilir. Bərpa işləri Prezident İlham Əliyevin "Ağdam rayonunun erməni silahlı birləşmələri ilə təmas xəttində yerləşən yaşayış məntəqələrində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" 2018-ci il 5 noyabr tarixli sərəncamına əsasən aparılır.



Rayon icra hakimiyyətinin memarlıq və tikinti şöbəsinin müdiri Abduləli Mehdiyev AZƏRTAC-ın bölgə müxbirinə bildirib ki, bərpa ediləcək evlərin 23-ü Çəmənli, 11-i Qaradağlı, 9-u Mahrızlı, 9-u Sarıcalı, 7-si Hacıməmmədli, 7-si Məmmədbağırlı, 7-si Orta Qərvənd, 7-si Təzəkənd, 6-sı Evoğlu, 6-sı İsalar, 5-i Ayaq Qərvənd, 5-i Əfətli, 4-ü Çıraxlı, 4-ü Rzalar, 3-ü Əhmədağalı, 3-ü Mirəşülli, 3-ü Zəngişalı, 1-i Kolqışlaq, 1-i Şükürağalı kəndlərindədir. Artıq 45 evin dam örtüyü dəyişdirilib. Hazırda həmin evlərin daxilində malyar işləri aparılır. Evlərin döşəmə, tavan, qapı və pəncərələri də dəyişdirilir. 20 evdə dam örtüyünün vurulması üçün beton işləri görülür. Bərpa işlərinə 400-dən çox yerli sakin cəlb edilib. Bu işlərin aprel ayında başa çatdırılması nəzərdə tutulur.

Təmas xəttinə yaxın olan yaşayış məntəqələrində zərər dəymiş evlərin dövlət başçısının sərəncamına əsasən bərpa edilməsi cəbhəyanı kəndlərin sakinləri tərəfindən böyük razılıqla qarşılanıb. Evoğlu kənd sakini Dilbazi Cəfərova evlərinin bərpa olunmasına görə sevincini belə ifadə edib: "Evimiz qəzalı vəziyyətdə idi. Dam örtüyü sıradan çıxdığı üçün yağış yağanda su damırdı. Buna görə çox çətinlik çəkirdik. Sağ olsun Prezidentimiz. Evimiz yüksək keyfiyyətlə bərpa edilir. Artıq evin damı, döşəmə, tavan, qapı və pəncərələr dəyişdirilib. Hazırda otaqlarda təmir işləri aparılır. Tezliklə rahat, təmirli mənzildə yaşayacağıq".

Qaradağlı kənd sakini Əvəz Əliyev isə deyib: "Dövlətimizin qayğısını hər zaman hiss etmişik. Kəndimiz təmas xəttində yerləşməsinə baxmayaraq, qaz, elektrik, su və rabitə ilə təmin olunub. Yollarımız yenidən qurulub. Prezidentimizə, ordumuza güvənərək doğma kəndimizdə yaşayır, təsərrüfat işləri ilə məşğul oluruq. 2016-cı ilin Aprel döyüşləri zamanı ermənilərin artilleriya atəşi nəticəsində dağılan evlər Prezidentin sərəncamı ilə bərpa edildi. Bu gün isə zərər çəkmiş digər evlərin növbəti sərəncamla bərpasına başlanılıb. Bütün bunlar dövlət başçısının bizə göstərdiyi diqqət və qayğısının təcəssümüdür".

Qeyd edək ki, sərəncama əsasən Ağdam rayonunun erməni silahlı birləşmələri ilə təmas xəttinə yaxın 19 yaşayış məntəqəsində mülki əhalinin mənzil-məişət şəraitini yaxşılaşdırmaq məqsədilə 121 fərdi yaşayış evinin bərpası üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Ağdam Rayon İcra Hakimiyyətinə 3 milyon manat ayrılıb.



# Cəlil Məmmədquluzadə-150

## Sizi deyib gəlmişəm...



# Mirzə Cəlil qüdrəti

**Onun haqqında qələmə aldığı məşhur essesində xalq yazıçımız Anar "Anlamaq dərdi"ndən bəhs edir. Bu dərdlə doğulan, onunla birgə ömür sürən və dünyadan da dərd ilə köçən işıqlı insanın zahiri gülüşü arxasındakı qəm pəncərəsi qarşısında cəmiyyətə kədərli baxışlarından danışır.**

### Qəm pəncərəsi

Oxuduqca bir daha fərqində olursan ki, anlamaq dərdi insanın çəkdiyi məşəqqətlərin ən ağırıdır. Ayrı-ayrı insanların, ümumilikdə isə cəmiyyətin kədərini qəlbində qalaqlayaraq ömrü zindana çevirməkdir. Sənin içində çəkdiklərinin mindən birini görüb dərk edə bilməyən böyük bir çoxluq arasındakı təkliyini, gücsüzlüyünü, zəifliyini görə-görə var qüvvətinlə bu vəziyyətə qarşı çıxmaqdır. Yeganə silahın olan qələmə-kağıza, sözə sarılaraq başqalarını da anlatmağa can atmaqdır. "Sizi deyib gəlmişəm..." deyə az qala yalvararaq üz tutduğun toplumun bir hissəsinin hücumlarından, hərbə-zorbalarından, bir qisminin biganəliyindən, etinasızlığından qorxmadan, usanmadan yazdıqlarının bəlkə əsrlər sonra başa düşülməsi ümidi ilə ömrünü şam kimi əritməkdir. Ömrün əvvəlindən sonuna qədər bu dərd yükünü yorulmadan daşımaqdır.

Bəli, anlamaq dərdi, həqiqətən, çox ağır dərddir. Amma insanı da elə bu dərd böyüdür. Ona əbədiyyəti bu dərd qazandırır. Zamanın fövqünə qaldırır. İnsan anlamaq dərdi ilə ucalır. Mənsub olduğu xalqın ictimai fikir tarixinin zirvəsində qərarlaşır. Onun kimi. Keçmişimizin, bu günümüzün və gələcəyimizin hansı səmtindən baxırsan-bax, səmadan, ucalardan göz yaşı içindəki qüssəli təbəssümü ilə üzümüzə gülümsəyən Cəlil Məmmədquluzadə kimi.

150 illik müqəddəs bir ruh kimi.

### Ədəbi xəzinə

Ədəbiyyatşünaslıqda belə bir fikir var ki, Azərbaycan ədəbiyyatında qədim dövr humanizminin mahiyyət və xarakterini öyrənməkdən ötrü əsas bələdçi kimi mütləq Nizami poeziyasına üz tutmalısan. Orta əsrlər şeiri və məhəbbət lirikasının ictimai və intim keyfiyyətlərini bilmək üçün belə bir bələdçilik missiyası əsasən Məhəmməd Füzuli yaradıcılığının üzərinə düşür. XX əsr romantizminin mürəkkəb xüsusiyyətlərini araşdırmaqda Hüseyn Cavid dramaturgiyası əsas material mənbəyidir. Yeni ədəbiyyatın qüdrətli məktəbi olan realizm üslubunun şəkil və məzmun mənzərəsinə isə ən geniş qapı məhz Cəlil Məmmədquluzadənin əsərlərindən açılır. Bu əsərlər onun yaşayıb-yaratdığı dövrün ədəbi-ictimai ruhunu duymaqdan ötrü misilsiz xəzinədir.

Mirzə Cəlil realizmi təkcə həmin dövr ədəbiyyatımızı deyil, həm də tarix, fəlsəfə, hüquq kimi bir sıra ictimai elmlər sahəsindəki vəziyyəti, mənzərəni öyrənməkdən ötrü çox əhəmiyyətlidir. O, "Molla Nəsrəddin" jurnalı ətrafında mərkəzləşən və ədəbiyyat tariximizdə bu adla da etibarlı böyük yer tutan mükəmməl ədəbi məktəb yaradıb. Ədib kimi öz əsərləri ilə Azərbaycan ədəbiyyatında yeni bir cığır açıb.

### 150 il əvvəl

Həyat və fəaliyyətinə qısaca ekskurs edək. Cəlil Məmmədquluzadə 22 fevral 1869-cu ildə Naxçıvanda doğulub. 1887-ci ildə Qori Müəllimlər Seminariyasını bitirərək kənddə müəllimlik edib. 1898-ci ildə ədib İrəvana köçərək orada mütərcimlik və müəllimlik fəaliyyəti ilə məşğul olmağa başlayıb. Amma bu işlərin heç biri o qədər də xoşuna gəlmədiyindən onlardan əl çəkib və əsas diqqətini xırda hekayələr yazmağa yönəldib. "Danabaş kəndinin əhvalatları", alleqorik üslubda qələmə aldığı "Çay dəsgahı" əsərləri Mirzə Cəlilin ilk əsərlərindən sayılır.

Onun mətbuatda dərc edilmiş ilk əsəri "Poçt qutusu" hekayəsidir. Bu hekayənin görkəmli jurnalist və ictimai xadim Məhəmməd ağa Şahtaxtlının mühərriri olduğu "Şərqi-Rus" qəzetində işıq üzü görməsinin çox maraqlı tarixi var. Həyat yoldaşı Nazlı ağır xəstələndiyi üçün Cəlil Məmmədquluzadə onu müalicə etdirmək məqsədilə qaynı Məmmədqulu bəy Kəngərli ilə 1903-cü ildə Tiflisə gəlir. Qafqaz azərbaycanlılarının mədəniyyət mərkəzlərindən sayılan bu şəhərdə o, görkəmli ziyalılarla, məşhur maarifpərvərlərlə tanış olur. Onlardan biri də "Şərqi-Rus" qəzetinin redaktoru Məhəmməd ağa Şahtaxtlı idi. O, Mirzə Cəlilin yeni yazdığı "Poçt qutusu" hekayəsini dinləyir və necə bəyənirsə, hətta qəhqəhə çəkir. Müəllifi yeni əsərlər yazmağa həvəsləndirir. "Poçt qutusu" hekayəsi tezliklə "Şərqi-Rus"un növbəti saylarından birində dərc olunur. Məhəmməd ağa gələcəyin dahi ədibini "Şərqi-Rus"da işləməyə dəvət edir. Hətta 1904-cü ilin noyabrında Mirzə Cəlil həmin qəzetin müvəqqəti redaktoru da olur. Məhz bu qəzetin sayəsində Mirzə Cəlil nəşriyyat işinin texnikasını öyrənir, böyük təcrübə əldə edir ki, bu da gələcəkdə ona gərək olur. "Şərqi-Rus" qəzeti bağlandıqdan sonra o, "Qeyrət" mətbəəsini yaradaraq bir sıra müəlliflərin mütərəqqi məzmunlu kitablarını nəşr edir.

1906-cı il aprelin 7-dən isə məslək yoldaşı Ömər Faiq Nemanzadə ilə birgə "Molla Nəsrəddin" jurnalının nəşrinə başlayır. Ədib xatirələrində mühərrirlik fəaliyyətinə başlaması ilə yanaşı, "Molla Nəsrəddin" məcmuəsinin yaranma tarixindən, bu yolda meydana çıxan çətinliklərdən bəhs edir. Məcmuənin birinci sayı onun gələcək fəaliyyət proqramını təşkil edirdi. Mirzə Cəlil bu nömrəyə böyük önəm verdiyindən onun materiallarını öz xatirələrində müfəssəl şərh etmişdi. Burada qaldırılan məsələlər məcmuənin sonrakı fəaliyyətində dövrün tələbinə uyğun şəkildə davam və inkişaf etdirilmişdi. Təsadüfi deyil ki, ziyalılar məcmuəyə, xüsusilə onun birinci sayına böyük əhəmiyyət verirdilər. Görkəmli uşaq yazıçısı Abdulla Şaiq xatirələrində yazırdı: "Molla Nəsrəddin" məcmuəsinin çox ardıcıl ədəbi, ictimai-siyasi istiqaməti var idi. Mətbuatımız tarixində çox mühüm yer tutan, ictimai-siyasi həyatımızın, ədəbiyyatımızın inkişafında böyük əhəmiyyəti olan bu məcmuənin ilk nömrəsindən aldığım təsiri heç bir qəzet və jurnaldan almamışam...

Bazar günü idi. Şəhər bağçasında oturub yoldaşlarımla danışırdım. Birdən-birə satıcı uşaqların hərəsinin əlində bir topa məcmuə "Molla Nəsrəddin", "Molla Nəsrəddin" deyə çığırdıqlarını eşitdim. Məcmuənin ilk səhifələrində əsrlərdən bəri şirin lətifələri ilə xalq içərisində məşhur olan Molla Nəsrəddinin mahir bir rəssam fırçasından çıxmış şəkli verilmişdi. Məcmuəni alıcılar bir-birinin əlindən qapırdılar. Mən də aldım. Orijinal karikaturaları, məzhəkəli və mənalı tənqidləri məndə başqa hal və sevinc oyatdı. Məcmuənin ictimai və siyasi əhəmiyyətini anlayan gənclər o gün çox nəşəli və şən görünürdülər".

İlk nömrələrindən başlayaraq "Molla Nəsrəddin" jurnalı bütün Yaxın Şərqdə şöhrət qazanır, bir çox gözüaçıq ədib, şair və mühərririn məcmuə ətrafında toplanmasına səbəb olur. Əvvəl Tiflisdə (1906-1917), sonra bir müddət Təbrizdə (1921-1922) və nəhayət Bakıda (1922-1931) nəşr olunan, təxminən 25 ilə yaxın ömür sürən (1906-1931) "Molla Nəsrəddin" məcmuəsi ədibin ictimai fəaliyyətində, eləcə də bütün Azərbaycan mətbuatı tarixində əsas yer tutur.

Cəlil Məmmədquluzadə mühərrirliklə yanaşı, hekayəçilik və dramaturqluq fəaliyyətini də uğurla davam etdirirdi. "Ölülər" (1909), "Danabaş kəndinin məktəbi" (1921), "Anamın kitabı" (1920), "Dəli yığıncağı" (1927) ədibin ən mühüm səhnə əsərlərindəndir. Bu əsərlər uzun müddət yalnız Azərbaycanda deyil, bütün başqa müsəlman şəhərlərində də səhnələrdə oynanmışdır.

### Azərbaycançı ədib

İllər əvvəl ulu öndər Heydər Əliyevə ən çox sevdikləri ilə bağlı ünvanlanmış 21 suala bu böyük şəxsiyyətin 21 cavabının ikisi məhz Cəlil Məmmədquluzadənin yaradıcılığı ilə bağlı idi. "Ən çox sevdiyiniz pyes?" sualına Heydər Əliyev "Cəlil Məmmədquluzadənin "Ölülər pyesi" cavabını vermişdi. "Ən çox sevdiyiniz jurnal?" sualına isə onun cavabı "Molla Nəsrəddin" olmuşdu.

Bu faktın özü Heydər Əliyevin milli dövlətçilik fəlsəfəsində Mirzə Cəlil yaradıcılığının nə qədər mühüm yer tutduğunu göstərir. 1994-cü ildə ulu öndərin təşəbbüsü ilə böyük ədibin anadan olmasının 125 illik yubileyi keçirildi. Heydər Əliyevin bu yubiley mərasimindəki nitqi onun klassik ədəbi-mədəni irsə peşəkar münasibətinin, Mirzə Cəlil yaradıcılığına bütün incəliklərinə qədər bələdliyinin ifadəsi idi. Heydər Əliyev həmin nitqində demişdi: "Cəlil Məmmədquluzadə Azərbaycan tarixində görkəmli yer tutmuş dahi bir insan, yazıçı, publisist, filosof, mütəfəkkir, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir şəxsiyyətdir. O, ədəbiyyatımızın, mədəniyyətimizin klassikidir. Eyni zamanda, o, bizim müasirimizdir, o, bu gün bizimlədir, bizim sıramızdadır". Heydər Əliyev onu da qeyd etmişdi ki, xalqımızın milli şüurunun formalaşmasında məhz "Molla Nəsrəddin" jurnalının və Mirzə Cəlilin rolu misilsizdir. Çünki görkəmli ədibin yaradıcılığı milli ruhun oyanışına, azərbaycançılıq ideologiyasının formalaşmasına xidmət edir. Milliliklə bəşəriliyin vəhdəti Cəlil Məmmədquluzadənin yaradıcılığında ən parlaq şəkildə öz əksini tapır. Ədibin təlqin etdiyi dəyərlər, irəli sürdüyü prinsiplər və öndərin müəllifi olduğu azərbaycançılıq ideyasının da təməl əsaslarını təşkil edir. Bu ideyanın mənəvi qidası, düşüncə qaynağı Mirzə Cəlil kimi böyük maarifpərvərlərimizin həyata, dünyaya, insana baxışlarından gəlir. Ulu öndər də bu xüsusda deyirdi: "Cəlil Məmmədquluzadənin yaradıcılığında Azərbaycanın bütün milli xüsusiyyətlərini, eyni zamanda, ümumbəşəri dəyərləri əks etdirən fikirlər bizim milli ideologiyamızın əsasıdır və həmin ideologiyanın yaranması üçün böyük bir vasitədir, böyük bir sərvətdir. O dövrdə həm milliliyə bağlı olmaq, həm də dünyəvi, ümumbəşəri dəyərləri qiymətləndirmək, onları öz yaradıcılığında əks etdirmək və xalqımızın ümumi səviyyəsini qaldırmaq cəhdləri böyük vətəndaşlıq cəsarəti idi".

Mirzə Cəlilin həyat və yaradıcılığına, ictimai fikir tariximizdəki roluna bu ali münasibətin davamı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında sərəncamında da parlaq şəkildə əks olunur. Sərəncamda qeyd edilir ki, Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatının yeni mərhələyə yüksəlməsində müstəsna rol oynamış və bütöv bir ədəbi məktəb formalaşdırmış qüdrətli şəxsiyyətdir. Vətəndaş yazıçının bədii nailiyyətlərlə zəngin irsində azərbaycançılıq məfkurəsi dövrün ictimai-siyasi fikrinin aparıcı amili kimi dolğun ifadəsini tapmışdır. Sənətkar həyat həqiqətlərini, ictimai mühiti hərtərəfli əks etdirən və bədii-estetik dəyər daşıyıcısına çevrilən rəngarəng obrazlar qalereyası yaratmışdır. Ana dilinin saflığı uğrunda daim mübarizə aparmış Cəlil Məmmədquluzadənin meydana gətirdiyi qiymətli dram və nəsr əsərləri, parlaq publisistika dərin humanist məzmuna malik olub, özündə milli və ümumbəşəri dəyərlərin vəhdətini ehtiva edir. Azərbaycanda və onun hüdudlarından kənarda geniş yayılaraq milli oyanışa, yeniləşmə hərəkatına yol açan və azadlıq ideyalarının inkişafına qüvvətli təsir göstərən "Molla Nəsrəddin" jurnalı məhz Mirzə Cəlil dühasının parlaq məhsuludur.

### Xalqın vicdanı

Cəlil Məmmədquluzadəni mənəvi dünyamızın böyük bir dəyərinə çevirən əsas amil onun həyatın özündən gəlməsidir. Mücərrəd xarakter və tiplər, anlaşılmaz obrazlar, oxucuya çətin çatan mürəkkəb ədəbi fəndlər ədibin yaradıcılığından kənardır. Mirzə Cəlildə nə varsa həyatidir, təbiidir, realdır. Sadəlik, xəlqilik, real həyata yaxınlıq onun qələmə aldığı əsərlərin başlıca məziyyətləridir. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Firudin bəy Köçərli hələ on illər əvvəl yazırdı ki, Cəlil Məmmədquluzadə öz xalqının həyat və dünyagörüşünü yaxşı bilir, incə müşahidə qabiliyyəti ilə ümumiləşdirir, ədəbi təsvirini yaradır. Onun bilavasitə həyatdan götürdüyü mövzular fantaziyanın məhsulu deyil. Cəlil Məmmədquluzadənin başqa bir məziyyəti isə müşahidələrini canlı və anlaşıqlı bir dillə Şərq yumorunun aydın xüsusiyyətləri ilə verə bilməsidir. Firudin bəy Köçərli Mirzə Cəlil və "Molla Nəsrəddin" ədəbi məktəbinə aid digər ədiblərin simasında yeni ədəbiyyatın, realist məfkurənin yarandığını, inkişaf etdiyini görür və bununla fəxr edirdi.

Azərbaycan ədəbiyyatının daha bir görkəmli nümayəndəsi, Cəlil Məmmədquluzadənin möhkəmləndirdiyi realizm ədəbi üslubunun çox uğurlu davamçılarından olan yazıçı, professor Mir Cəlal isə bədii ustadı haqqında düşüncələrini belə qələmə alırdı: "Mirzə Cəlil xalq həyatını bütün sevincli və kədərli, işıqlı və kölgəli, yeni və köhnə mənzərələri ilə ədəbiyyata gətirən, söz sənətini xalqın qurtuluş və səadəti üçün səfərbər etməyi vacib vətəndaşlıq vəzifəsi sayan birinci ədiblərdəndir. Azərbaycan kəndi və kəndlisi, onun həyat, məişət lövhələri, təfəkkür tərzi və səviyyəsi heç bir ədibin əsərlərində Mirzə Cəlildə olduğu qədər təbii, doğru təsvir edilməmişdir".

Mirzə Cəlil öz xalqının vicdanı idi. Müşahidə etdiyi dərdlər, insanları, cəmiyyəti geri salan maneələr ona rahatlıq vermirdi. "Sözümü o kəslərə deyirəm ki, onlar adamdır" söyləyirdi. Gördüklərini qələmə almaq, yatanları qəflət yuxusundan oyatmaq üçün çarə axtarırdı. Ədəbiyyatın, yaradıcı adamın müqəddəs vəzifəsini də bunda görürdü. Toplumun inkişafına, öz həyatını sivil formada qurmasına mane olan zülm, cəhalət, mövhumat dura-dura qələm sahiblərinin əfsanələrdən, "yarın pərişan zülfündən, kaman qaşlarından, şəhla gözlərindən yazmağı ədibə təəccüblü gəlirdi. Və yazırdı: "Bizim bəzi boşboğaz yazıçılarımız da oxşayırlar həmin təbiblərə ki, azarlının nəbzinə baxandan sonra "xudahafiz" deyib papaqlarını axtarırlar". ..."Nicat", "nicat" deməklə nicat yolu öz-özünə tapılmaz. ...Müftə-müftə "nicat", "məktəb" deməklə "Fatıya tuman olmaz!" Lazımdır mikrobları millətin bədənindən kənar eləmək! Yoxsa nə göz yaşı tökməklə azarlı şəfa tapar, nə dua yazmaqla!"

### "Molla Nəsrəddin"dən başlanan yol

Mirzə Cəlilin ədəbi-ictimai fəaliyyəti o qədər geniş, əhatəli və zəngindir ki, hələ ədibin sağlığında bütün Yaxın Şərqdə öz təsirini göstərmişdi. Müsəlman Şərqində, daha doğrusu, Azərbaycan dili anlaşılan elə bir ölkə yoxdur ki, orada Cəlil Məmmədquluzadəni bu və ya başqa dərəcədə tanımasınlar. Onun fəaliyyəti bütün coğrafi hüdudları aşıb keçdiyi kimi zaman məhdudiyyəti də tanımır. 25 il heç bir maddi mənfəət güdmədən böyük fədakarlıq və cəsarətlə nəşr etdirdiyi "Molla Nəsrəddin" məcmuəsinin hər nömrəsi üstündən əsrdən də çox zaman keçsə belə, harada, nə zaman qarşına çıxsa, yenə təzədir. Ədibin mənalı, bədii, ictimai tənqidi, onun həqiqət sevən qələmi XX əsr ictimai fikrinin formalaşdırdığı ən zəngin xəzinələrdən biri kimi Azərbaycan xalqının ictimai mübarizə, mədəniyyət tarixinə daxil olub.

Cəlil Məmmədquluzadənin mənəvi övladı olan bu jurnal elə bir həqiqət və intibah kitabıdır ki, onu vərəqləyən hər oxucu "Molla Nəsrəddin"i yaratmış insanın böyüklüyünə heyran olur.

XX əsr ədəbiyyatımızın yeni istiqaməti 150 ildir ki, şölələnən bu işıqdan başlanır. Mirzə Cəlil klassik qəzəl, saray ədəbiyyatı, məclis, mey-məzə ədəbiyyatına qarşı həyat və mübarizə ədəbiyyatını yaratmış nəhəngdir. Xalqdan, onun tərəqqi meyillərindən doğan, bu meyilləri ifadə edən həqiqi, tənqidi realizmin inkişaf etdirilməsində, həyat və məişətimizin əlvan lövhələrinin cəsarətlə ədəbiyyata gətirilməsində, xalq zəka və yumorunun inkişafında misilsiz rolu olmuş ədibdir. Təbiilik, sadəlik və həqiqətpərəstliyin bədii meyar kimi qalibiyyətini təmin edən Söz cahangiridir.

Cəlil Məmmədquluzadə ədəbiyyatımıza Mirzə Ələkbər Sabir kimi dühanı bəxş etmiş yolgöstərəndir. Sabir qələminin canlanmasında, Sabir ənənələrinin güclənməsində Azərbaycan ədəbiyyatı tarixi hər kəsdən əvvəl Cəlil Məmmədquluzadəyə minnətdardır.

Ötən il yaradılmasının 100-cü ildönümünü qeyd etdiyimiz müsəlman Şərqinin ilk demokratik respublikası - Azərbaycan Xalq Cümhuriyyəti də istiqlalımızı elan etmiş qurucu atalarla yanaşı, həm də Mirzə Cəlil kimi fikir babalarının, maarifçilərin əsəridir. Onların düşüncələri işığında yoxdan var olmuş dəyərdir. Çünki 1905-ci ildə baş vermiş inqilabdan sonra Azərbaycanda başlanan azadlıq, istiqlal meyillərinin məna və ruhunu "Molla Nəsrəddin" qədər doğru, dolğun ifadə edən, xalqa bu qədər doğma, yaxın, çatımlı olan ikinci bir mətbuat orqanı yox idi.

Cəlil Məmmədquluzadənin özünə Molla Nəsrəddin təxəllüsünü seçməsi, heç də təsadüfi deyildi. Rəvayətə görə, islam tarixində siyasi vuruşmaların, çəkişmələrin kəskin vaxtlarında Molla Nəsrəddin, Bəhlul, Həsən Kaşi kimi adamlar özlərini dəliliyə vuraraq ürəklərindəki həqiqəti deməyə imkan tapırdılar. Hakimlər bu adamları dəli saydıqlarından onların söylədiklərinə əhəmiyyət vermir, məsuliyyətə cəlb etmirdilər. Beləliklə, cəmiyyətin bir çox sahələrindən çoxdan qovulmuş həqiqət bu "divanələr" vasitəsilə yaşayırdı. Hələ onların adı ətrafında yaranan duzlu-məzəli ibrətamiz lətifələr hesabına bir az da yayılır, rövnəq tapırdı.

### Kefli İsgəndərin həqiqətləri

Hər zaman xalqa arxalanan, xalqın gücünə inanan və inkişafına çalışan Cəlil Məmmədquluzadə bu jurnalın səhifələrində dərc olunaraq tək Azərbaycanda yox, Qafqazda, Yaxın Şərqdə maraqla oxunan felyetonları, digər publisistik yazıları qədər hekayələri, dram əsərləri ilə də ətalətdən qurtulub cəmiyyətin irəli getməsinə çalışırdı.

Onun mövzusu da, xitab etdiyi ünvan da, müəllimi də xalq idi. Mirzə Cəlil xalqın həyatına ona görə dərindən bələd idi ki, özü də həmişə xalq içində yaşamış, sevinc və kədəri, adət-ənənələri əhatəsində böyümüşdü. Mübarizə qüvvəsini də, ilhamını da ədib xalqdan alırdı. Xalq həyatının rəngarəngliyi onun bütün əsərlərində öz əksini tapır. Bu əsərlərin hərəsində böyük söz ustadı bir mətləbə toxunur. Fərqli bir həyat həqiqətinə işıq salır. "Ölülər" əsərinə diqqət yetirək. Burada Mirzə Cəlil dini etiqad və zehniyyəti, patriarxal münasibət nəticəsində tamamilə kütləşmiş, insani hisslərini itirmiş, avam, nadan camaatı göstərir. Din və mövhumat fırıldaqçıları bu adamların, demək olar ki, canına daraşıblar. Avamlığı üzündən kor, kar, lal və duyğusuz olan adamların əməyini tüfeylilər mənimsəyir, üstəlik onlara ağalıq edirlər. Şeyx Nəsrullah islam kimi ali əxlaqi-mənəvi dəyərlər aşılayan bir dini Sabirin təbirincə desək, quldurluq tüfənginə çevirmiş bir şarlatandır. O, Xorasandan Araz qırağına, Naxçıvana qədər şəhər və kəndləri gəzir, möcüzə göstərib, guya "Məhəmməd ümmətinə xidmət edir".

Bu möcüzələr haqqında hər yerdə danışılır, ancaq möcüzələrin reallaşmasını gördüm deyən olmur. Amma inanmamağa da kimsə haqlı deyil. Çünki qatı mövhumat qaranlığına bürünmüş belə bir mühitdə şəkk etmək küfr sayılır. Ədib Şeyx Nəsrullahın macərasını qəribə, məharətli bədii üsul ilə gətirib adi və real müsəlman məişətinə bağlayır. Beləliklə, Mirzə Cəlil ailələr arasında mülkiyyət qovğalarının yaratdığı iyrənc mənzərəni, mala, pula, var-dövlətə vəhşi hərisliyi çox böyük ustalıqla açıb göstərir. Ədib maddi dəyərlərin hər şeydən üstün tutulduğu, mənəvi dəyərlərin isə aşındığı mühitdə etiqadın da, sevginin də, nifrətin də sadəcə riyadan başqa bir şey olmadığını canlı, inandırıcı lövhələrlə, yüksək bədii üsulla sadə ana dilində sübuta yetirir. Şeyx Nəsrullah qəbiristanda əhalidən:

"Dirilməsini istədiyiniz ölülərinizin adlarını verin" - deyə siyahı istəyəndə, çoxları susur, kənara çəkilir. Bunun mənasını müəllif komediyanın qəhrəmanı Kefli İsgəndərin dili ilə belə açır:

"Amma zamani ki, ricət məsələsi ortalığa qoyuldu və Şeyx Nəsrullah ölülərin dirilmək ixtiyarını qoydu sizin qabağınıza, razı olmadınız ölən qardaşlarınızın, bacılarınızın və övrət-uşaqlarınızın dirilməyinə!

Niyə? Niyə razı olmadınız?

Ondan ötrü ki, arvadlarınızı yumruq altında öldürmüşsünüz. Ondan ötrü ki, qardaşlarınızın arvadını almısınız. Ondan ötrü ki, ölən dostlarınızın yetimlərinin malını yemisiniz. Razı olmadınız ki, dirilib gəlsinlər və sizin əməllərinizi görüb desinlər: tfu sizin üzünüzə!"

Qeyd etdiyimiz kimi, "Ölülər" əsəri ulu öndər Heydər Əliyevin ən çox sevdiyi pyes idi. Bu əsərin ən böyük elmi qiymətini də elə o vermişdi: "Mən tam cəsarətlə deyə bilərəm ki, dünya ədəbiyyatında buna bərabər, buna bənzər ikinci əsər tapmaq mümkün deyildir. Bu əsər Cəlil Məmmədquluzadənin həm də nə qədər böyük filosof, psixoloq olduğunu göstərir, həm də onun yalnız özünəməxsus yaradıcılıq üslubunu və özünəməxsus fitri istedadını əks etdirir. "Ölülər" əsərindən uzun müddət din əleyhinə təbliğatda istifadə edilmiş və çox hallarda o, din əleyhinə yazılan bir əsər kimi qəbul olunmuşdur. Ancaq Mirzə Cəlil bu əsəri yaradarkən heç də dinə müxalif çıxmamış, əksinə, bu əsərdə islam dininin xalqımız üçün nə qədər böyük mənəvi dəyər olduğunu sübut etməyə çalışmışdır. Eyni zamanda, o, dini təhrif edənləri, dindən istifadə edib fırıldaqçılıqla məşğul olanları ifşa edərək tənqid atəşinə tutmuşdur".

### Xalqa doğru

"Ölülər" əsərində ədib İsgəndərin dili ilə insanları oxuyub inkişaf etməyə, öz nöqsanlarını aradan qaldırmağa, mənəvi intibaha nail olmağa çağırır. "Danabaş kəndinin məktəbi" adlı ikinci məşhur pyesi də bu çağırışın davamıdır. Burada da ədib məktəb, maarif məsələsini qoyur, xalqın işıqlığa çıxması zərurətini aktuallaşdırır. Şeyx Nəsrullahın biabır olub getdiyi bu kəndə indi müəllim Həsənov gəlir. O, yeni aləmin, maarifin, mədəniyyətin, elmin təmsilçisidir. Amma onun da yetərincə qüsurları var. Həsənov kəndə çinovnik libasında, çar məmuru kimi gəlib. Özü ilə birgə pristavı, yüzbaşını, inspektoru, qazını və başqalarını da gətirib. Sadə camaat isə bu müftəxorları yaxşı tanıyır. Onlardan ziyandan başqa heç nə gəlməyəcəyini bildiyindən şərdən qorunmaq üçün qaçıb hardasa daldalanmağa çalışır. Ona görə də camaatın vahiməyə düşməsi, xırmandan qaçıb dağılması, ağlaşma qurması, uşaqların kərmə qalağında gizlənməsi, ataların öz doğma övladlarını danması təbii görünür.

Kənd sakinləri hətta məktəbin təşkilindən sonra da müəllimdən ehtiyat edirlər. Onun uşaqlara nə öyrətdiyini bilməkdən ötrü gəlib dərsində əyləşirlər. Müəllim Həsənovsa, xalqdan uzaq adamdır. O, sadə insanlarla dil tapa bilmir. Məktəbin, təhsilin, maarifin bu insanlara faydalarını onlara anlatmağı bacarmır. Ona görə də arada ünsiyyət alınmır.

Ədibin "Ölülər"lə başlayıb, "Danabaş kəndinin məktəbi" ilə davam etdirdiyi ədəbi qalereyalar silsiləsini "Anamın kitabı" pyesindəki mənzərə tamamlayır. Pyesi oxuduqca hiss edirsən ki, bu əsərdə təsvir edilmiş Əbdüləzim kişinin övladları kəndlərimizdə məktəb açılan zaman, bəlkə də, zorla bu məktəblərə cəlb edilmiş adamlardır. Onlar bu məktəblərdə dərs almış, oxuyaraq savadlanmış və böyüyüb ziyalı olmuşlar. Onlar hətta daha mükəmməl təhsil almaqdan ötrü uzaq-uzaq ölkələrdə yaşamışlar. Təhsillərini başa vurub, vətənə, anaları Zəhrabəyimin yanına qayıtmışlar. Ana Azərbaycanın ümumi obrazıdır. Onun üç oğlu, bir qızı var. Böyük oğlu Rüstəm bəy təhsilini Peterburqda tamam edib. Danışarkən nitqinə cürbəcür rus sözləri qatır, peşəsi lüğətlər tərtib etməkdir. Ortancıl oğlu Mirzə Məhəmmədəli Nəcəfül-Əşrəfdə təhsil alıb. Həmişə fars ibarələri ilə danışan dindar bir müsəlman ziyalısıdır. Şəriət dərsi verir. Kiçik oğul Səməd Vahid isə İstanbulda ədəbiyyat fakültəsini bitirib. Həmişə osmanlı ləhcəsində danışmağa çalışır. O zamanın türk gəncliyi arasında çox dəbdə olan şairlik Səməd Vahiddən də yan keçməyib. Şeir yazmaqla məşğuldur. Üç qardaşın yeganə bacısı Gülbahar isə Vətəndə böyüyüb tərbiyə almış, anasını, qardaşlarını təmiz bir məhəbbətlə sevən savadlı, ismətli, kamallı Azərbaycan qızıdır. Onun timsalında Mirzə Cəlil xalqımızın min illərdən gələn milli-mənəvi dəyərlərini təqdim edir.

Bu ailənin simasında görkəmli ədib o zamankı Azərbaycan ziyalılarının daxili ziddiyyətlərini, təbəqələşməsini göstərir. Belə ziyalılar Vətənin nicatını kənarda axtarmaqla ən böyük yanlışa yol verirlər. Onlar kənara ümid bağlayır, hər bir tərəqqinin ilk yardımçısı olan xalqı, sadə zəhmət adamlarını tanımır, heç tanımağa cəhd də göstərmirlər. Ona görə də "Anamın kitabı"ndakı ziyalıların heç biri ölkə xaricində aldıqları mükəmməl ali təhsilə rəğmən Azərbaycanın əsl doğma, həqiqi, xalqa yaxın ziyalıları deyillər. Buna görə də Cəlil Məmmədquluzadə əsərində bu adamların pərəstiş etdikləri boş və mənasız kitablara qarşı ananın, doğma torpağın ətri duyulan həyat kitabını qoyur.

### Usta qələm

Mirzə Cəlilin komediyalarında hərəkət üstünlüyü, münaqişələr, keçidlər, vasitəli xasiyyətnamələr, dinamik mükalimələr, təhlili sual və xitablar çoxdur. Bunlar böyük məharətlə yaradılıb. Bu əsərlərdə artıq bir söz tapmaq mümkün olmadığı kimi, naqis bir epizod da tapmaq mümkün deyil. Mübarizələr, münaqişələr, insanlar qəhrəmanın başında, taleyində elə cəmlənib ki, bunların bədii əsər yox, həqiqətən baş vermiş faktik əhvalat olmasına sövq-təbii inanırsan. Cəlil Məmmədquluzadənin böyüklüyü həm də ondadır ki, o, yaratdığı tiplərin heç birinin açıq, müstəqim xasiyyətnaməsini vermir. Heç bir qəhrəmanını tərifləmədiyi kimi, heç bir mənfi surəti də pisləmir. Onun yolu həmişə məcaz, bədii lövhə, tərz yoludur. Hadisənin, mübarizənin özü elə yollarla davam və inkişaf edir ki, təzə də, köhnə də, fərəh də, kədər də, gözəl də, çirkin də, yaxşı da, pis də, cəsur da, qorxaq da aydın görünür.

Mirzə Cəlilin hekayələrində də belədir. O, qısa, mənalı, psixoloji hekayənin böyük ustasıdır. Bütün hekayələrində obyektiv, şirin, mülayim bir nağıl üslubu var. Ədib oxucusunu hekayəyə elə bağlayır ki, müəllif yada düşmür, görünmür, oxucu onun yazdıqlarına hekayə kimi yox, həqiqətən baş vermiş hadisə kimi baxır. Cəlil Məmmədquluzadə elə bu usta qələmi ilə də oxucusunu düşündürür. Onun diqqətini fərd olaraq özündəki və ümumən cəmiyyətdəki eyiblərə yönəldir.

O, elə bir qüdrətli ədibdir ki, hətta aradan yüz illər keçəndən sonra da qarşılaşdığın hansısa həyat həqiqətlərini, ictimai naqislikləri görəndə onun əsərlərindəki oxşar epizodlar yadına düşür. Üzləşdiyin kimsə öz xarakterik cizgiləri ilə Mirzə Cəlilin qəhrəmanlarından hansınısa xatırladır. Amma indi müsbətə doğru çox şey dəyişib. Bu dəyişikliklərin ən mühümü isə Azərbaycan xalqının sahib olduğu milli dövlətdir. Təhsilin, maarifin, mədəniyyətin bu dövlət, bu xalq üçün bir dəyərə çevrilməsidir. Ölkəmizin qazandığı sosial-iqtisadi, mədəni nailiyyətlərdir. Beynəlxalq aləmdə ölkəmizin getdikcə güclənən mövqeyidir. Azərbaycan insanının sosiallaşmasıdır, düşüncələrdə, həyata baxışlarda, dəyərlərə münasibətlərdə müşahidə olunan inkişaf meyilləridir.

*Mirzə Cəlilin böyüklüyü isə ondadır ki, o, bu proseslərdə indi də iştirak edir. Əsərləri ilə yol göstərir, öyrədir, düşündürür və cəmiyyəti irəli aparır.*

**Nurlana ƏLİYEVA,**
**Bakı Slavyan Universitetinin rektoru, professor**



■ Əvvəl Tiflisdə (1906-1917), sonra bir müddət Təbrizdə (1921-1922) və nəhayət Bakıda (1922-1931) nəşr olunan, təxminən 25 ilə yaxın ömür sürən (1906-1931) "Molla Nəsrəddin" məcmuəsi ədibin ictimai fəaliyyətində, eləcə də bütün Azərbaycan mətbuatı tarixində əsas yer tutur.

■ Ulu Öndər Heydər Əliyevə ən çox sevdikləri ilə bağlı ünvanlanmış 21 suala bu böyük şəxsiyyətin 21 cavabının ikisi məhz Cəlil Məmmədquluzadənin yaradıcılığı ilə bağlı idi. "Ən çox sevdiyiniz pyes?" sualına Heydər Əliyev "Cəlil Məmmədquluzadənin "Ölülər" pyesi" cavabını vermişdi. "Ən çox sevdiyiniz jurnal?" sualına isə onun cavabı "Molla Nəsrəddin" olmuşdu.

■ Cəlil Məmmədquluzadənin mənəvi övladı olan "Molla Nəsrəddin" elə bir həqiqət və intibah kitabıdır ki, onu vərəqləyən hər oxucu bu jurnalı yaratmış insanın böyüklüyünə heyran olur.

■ "Ölülər" əsərində ədib İsgəndərin dili ilə insanları oxuyub inkişaf etməyə, öz nöqsanlarını aradan qaldırmağa, mənəvi intibaha nail olmağa çağırır. "Danabaş kəndinin məktəbi" adlı ikinci məşhur pyesi də bu çağırışın davamıdır.

## İmadəddin Nəsimi - 650

# SON SƏFƏR

Povest

*Hüseynbala MİRƏLƏMOV*



**(Əvvəli qazetin 31 yanvar və 2, 5 fevral tarixli nömrələrində)**

Seyid Əli gözlərini yumdu.

Bu xoş və ləzzətli bir an idi. O, bir qədər susduqdan sonra udla kanonun səsinə uyğun bir ahənglə dedi:

Bahar olduvü, açıldı üzündən pərdə gülzarın,
İrişdi qönçənin dövrü, zamanı qalmadı xarın.

Fərəhdən qönçənin gülügün yanğı güldü, açıldı
Ki mənzuri yenə güldür çəməndə bülbülü-zarın.

Çiçəklər müxtəlif əlvan, nə mənimdir, ani bilkim,
Boyaqçısı bir imiş, çün bu əşcarın, bu əzharın.

Əbirindən çəmən göz kim nə tib afaqa göndərmiş,
Kim olmuş buyi-ətrindən məşami tazə əttarın.

Bu gün bazar edən gülşən, çəməndən, laləvü-güldən
Qənimət gör ki beş günlükdür tamaşası bu bazarın.

Əgərçi sünbülü nərgis bəyani-küntükənz eylər,
Qaçan bəlhüməzəl bilsin işaratın bu əsrarın.

Nəsiminin sözü gərçi dəmi - İsadır, ey münkir,
Sənə kar eyləməz niçin ki, yoxdur həqqə iqrarın.

Seyid Əli qəzəli oxuyub bitirdi, onun irəliyə uzanmış boynu birdən-birə süstləşdi, başı ağır-ağır köksünə sarı endi.

İbrahim şah qəfildən dedi:

- Bəh-bəh-bəh!

Bu gün bazar edən gülşən, çəməndən, laləvü-güldən
Qənimət gör ki, beş günlükdür tamaşası bu bazarın.

Və astadan, ağır-ağır bir neçə dəfə əl çalıb, əlavə etdi:

- Bu yazıq Qaim Şirvani, Əhməd Kəsirəddin, Bəhluli, bəs, səni öldürməsin, neyləsin? Axı, sən onları məhv edirsən.

İbrahim şahın bu sözünə məclis əhli əl çaldı. Bu dəm saray əyanlarından biri - karvanbaşı Yarəhməd dedi:

- Ya əlahəzrət, bəzi beytlərin mənası bizə aydın olmadı. Müsaidə etsəydiniz, şair onlara şərh verərdi.

Seyid Əli soruşdu:

- Deyə bilərsinizmi hansı beytlər?

- Məsələn, son beyt.

Seyid Əli İbrahim şaha baxdı:

- Əlahəzrət müsaidə edərsə...

- Buyur, buyur...

Seyid Əli həmin beyti bir daha əzbərdən dedi:

Nəsiminin sözü gərçi dəmi - İsadır, ey münkir,
Sənə kar eyləməz niçin ki, yoxdur həqqə iqrarın.

Bu misraları eşidəndə bütün məclis əhli güldü. Seyid Əli dedi:

- Burda qəliz heç nə yoxdur. Yəni, Nəsiminin sözü, ey münkir, ey inkarbaz, İnsanın nəfəsidir. Ancaq sənə təsir etməz. Çünki həqqə iqrarın yoxdur. Yəni, həqqi təsdiq etməyə qüdrətin çatmır.

Məclis əhli yenə güldü. İbrahim şah üzünü karvanbaşı Yarəhmədə tutub dedi:

- Sənin başının ölçüsü çox balacadır, amma yaxşı işləyir.

Məclis əhli yenə güldü. İbrahim şah da özünü uğunmaqdan güclə saxlayıb dedi:

- Şair, bir qəzəl də oxu!

Seyid Əli əlini gözünün üstə qoyub, musiqiçiləri gözlədi. Onlar "Şüştər"i elə ustalıqla çaldılar ki, şairlər şairi qeyri-ixtiyari özünü unudub, muğamın irişilməz, əlçatmaz, ünyetməz aləminə qərq oldu. Udçalan oğlanın ona işarə etdiyini görüb, dodaqlarını astadan tərpətdi:

Qanı bir əhdü peymanı bütün yar,
Qanı bir qövlü gercək, doğru dildar?

Qanı dövranda bir qəlbi dəğəlsiz,
Qanı aləmdə bir aricə dinar?

Qanı sol incuyi ari sədə kim,
Bulunsun onda bir lölöi şəhvar?

Qanı gerçəkləyin bir həqqə aşiq,
Qanı görmüş həqqi bir əhli-didar?

Qanı qəflət şərabından bir ayıq,
Qanı əsrüklərin cəmində huşyar?

Qanı əhdində bir sabitqədəm kim
Qoyam adın onun doğru vəfadar?

Qanı dünyada, yarəb, şol əmin kim,
Kim onda gizlənə min dürlü əsrar?

Qanı sadiqlərin razinə məhrəm,
Qanı aşiqlərin rəncinə timar?

Yar ilə çünki yar oldun, Nəsimi,
Nə qəm, gər xəlqi-aləm olsa əğyar?

Məclisə sükut çökdü. İbrahim şahın qaşları ilan quyruğu kimi qıvrılmışdı. O, handan-hana özünə gəlib dedi:

- Şair, sənin ruhun məhz bu qəzəldə aşikar olur, üsyankarlığın tuğyan edir. Özü də bu qəzəli lap "şüştər"ə uyğun seçdin. Zəmanəni, dövranı vəfasızlıqda, hiyləgərlikdə qamçıladın. Əmma buna haqqın var. Çünki üsyankar olmayan şair kimə və nəyə lazımdır?

Qanı dövranda bir qəlbi dəğəlsiz...

"Dəğəlsiz" sözü ilə fikrini ört-basdır edirsən. Əmma buna hacət yoxdur. Ona görə rica edirəm, bu misranı belə yazasan:

- Qanı dövranda bir qəlbi hiyləsiz?

Seyid Əli təəccüblə İbrahim şahın üzünə baxdı.

İbrahim şah dedi:

- Belə olarmı, şeirin ahəngi pozulmur ki?

Şairlər şairi gülümsündü:

- Xeyr, pozulmur.

Məclis əhli əl çalıb, İbrahim şahı alqışladı. O isə öz növbəsində dedi:

- Yəqin ki, bu alqış böyük şairə aiddir.

Sonra İbrahim şah üzünü qapının ağzında dizi üstə oturmuş, başı araqçınlı eşikağasına tərəf tutdu:

- Ya Mahmud Qarakurt, şairə və qardaşına xələt!

Mahmud Qarakurt dərhal yerindən sıçradı və qapının arxasında gözdən itdi. Məclis isə öz ahəngində davam edirdi...

❖ ❖ ❖

Bu zaman Şamaxının tamamilə ucqar bir dağ kəndində ağaclarla əhatələnmiş hündür, tənəbili evlərdən birində də bir məclis vardı və bu məclis dövlətli dul arvad Rəbiyyə xatuna məxsus idi.

On iki müxtəlif yaşlı, müxtəlif qiyafəli adam bir süfrə arxasında əyləşib, şərab və şərbət içirdilər. Onların beş-altısı şair, qalanları da molla, falçı, dəllək və lotu idi.

Gözləri həmişə qıpqırmızı olan girdəsifət Bəhlulinin təklifi ilə Rəbiyyə xatun Qurani-Kərimi gətirib ortalığa qoydu və əlini kitaba basıb dedi:

- Bu Qurani-Kərimə and içirəm ki, bu sirri heç yerdə, heç kimə açmayacaq və İmadəddin Nəsimi adında kafərin ya sürgün, ya da qətl olunduğunu görməyincə, onu təqib etmək fikrindən dönməyəcəyəm.

Rəbiyyə xatundan sonra şair Bəhluli, şair Qulaməli, şair Qaim Şirvani, şair Əhməd Kəsirəddin, şair Tacəddin Şirvani, şair Mail Fədai, molla Ruxnəddin Xəlili, molla Seyid Məhəmməd, dəllək Nəsrəddin Zəbani, falçı Yusif Səbayi, lotu İsfəndiyar Qutluq növbə ilə bir-bir əllərini Qurani-Kərimə basıb, onun dediklərini təkrar etdilər. Növbə lotu Kamal Mərufa çatanda, o birdən ağlamağa başladı.

- Nə oldu sənə? - deyə hamıdan yaşlı Qaim Şirvani soruşdu.

- Qaim əmi, mən qorxuram, Qurani-Kərimə əl basıb, and içə bilmərəm!

Onun necə cani-dildən ağlamağını görən məclis əhli təəccüblə bir-birlərinin üzünə baxdılar. Topasaqqal molla Seyid Məhəmməd ona müraciətlə:

- Yaxşı, yaxşı, ağlama, qoy fikirləşək, görək neyləyərik?

Ancaq lotu Kamal Mərufun daha bərkdən ağlamağını görən molla Seyid Məhəmməd məclisin təşəbbüskarı, təşkilatçısı və rəhbəri Qaim Şirvaniyə baxdı. Təcrübəli, üzü üzlər görmüş, üstəlik, uzun illər boyu toylarda zurna üfləmiş Qaim Şirvani mehriban bir səslə dedi:

- Oğlum, Kamal, özünü ələ al, sakitləş. Burada qorxulu heç nə yoxdur. Qurani-Kərim müqəddəs kitabdır, haqq və nizam rəmzidir. Lotu da kafirdən çəkinər? Qorxma, gəl əlini bas və mənim dediklərimi de, vəssalam.

Kamal Məruf təzədən şivən qopardı. Rəbiyyə xatun dözə bilməyib dedi:

- Yaxşı, bu tifili ağlatmayın, başqa bir şey fikirləşib tapın.

- Yaxşı, oğlum, - Qaim Şirvani əlini onun çiyninə qoydu, - Qurani-Kərimə əl basma, elə-belə and iç və bizim dediklərimiz sözləri təkrar et.

- Baş üstə!

Kamal Məruf diz üstə çöküb, əlinin arxası ilə gözlərinin yaşını silib, tez-tez dedi:

- Atamın goruna and içirəm ki, bu sirri heç yerdə, heç kimə açmayacaq və İmadəddin Nəsimi adında kafirin ya sürgün, ya da qətl olunduğunu görməyincə, onu təqib etmək fikrindən dönməyəcəyəm.

Kamal Mərufun sözləri belə tez-tez söyləyib, and içməsinə məclis əhli güldü. Hiyləgərlikdə tayı-bərabəri olmayan Qaim Şirvani uzun barmaqları ilə ona hədə gələrək, gözlərini ağardıb dedi:

- Sən indiyə qədər atanın goruna and içib verdiyin sözlərin heç birinə əməl etməmisən. Amma bu xına o xınadan deyil. Bax, əgər bir yerdə ağzını açıb, bizim bu məclisimiz barədə bir söz desən, səni bu əllərimlə it kimi gəbərdərəm.

- Bu nə sözdü, Qaim əmi, məni tanımırsan?

- Tanıyıram, tanıyıram, elə tanıdığım üçün deyirəm...

Sonra Qaim Şirvani sakitləşib əyləşdi. Qarşısındakı qədəhə şərab süzüb başına çəkdi və islanmış bığlarını əli ilə silib dedi:

- Nə qədər ki, bu köksüz və budaqsız məlun Şamaxıdadır, özü də sağdır, bizə ağ gün və şah məclisi qismət olmayacaq. İmadəddin Nəsimi ya ölməli, ya sürgün olunmalıdır!

Otaqdakı on iki kişi onun dediklərini vahiməli bir səslə təkrar etdi:

- İmadəddin Nəsimi ya ölməli, ya sürgün olmalıdır!

Əgər bu kişilərin qorxunc bağırtılarını çöl-biyabanda kimsə eşitsəydi, vahimələnərdi və dabanına tüpürüb var gücü ilə hara gəldi qaçardı.

Qaim Şirvani dedi:

- Mənim babamın da, atamın da çörəyi sözdən çıxıb. İndi bu köksüz və budaqsız məlun kafir bərəkətimizi qaçırıb, qafiyələrilə öz batil fikirlərini ört-basdır edərək, nəinki Şirvan əhlini və hökmdarını, hətta bütün məşriq əyan və əmirlərini barmağına dolayıb. Ona görə də deyirəm: İmadəddin Nəsimi ya ölməli, ya sürgün olunmalıdır!

Otaqdakı on iki kişi yenə onun dediklərini vahiməli bir səslə təkrar etdi:

- İmadəddin Nəsimi ya ölməli, ya sürgün olmalıdır!

Sonra Qaim Şirvani sallaqbığ falçı, şirvanlılar arasında daha çox "Cindar" təxəllüsü ilə tanınan Yusif Səbaiyə üzünü tutub dedi:

- İlk tədbirimiz nə vaxt olacaq?

Yusif Səbai qədəhinə şərab süzüb, gözüyumulu halda axıracan başına çəkdi və qədəhin altından öpüb, süfrəyə qoydu.

- İlk tədbirimiz yaxın gecələrin birində olacaq. İmadəddin Nəsiminin həyat qapısına bir ox sancacağıq.

Qaim Şirvani üzünü süfrədə oturanlara tutdu:

- Xub, indi bu oxu hansımız sancacağıq?

Heç kimin gözləmədiyi bir halda Kamal Məruf ayağa qalxıb, əlini sinəsinə vuraraq çığırdı:

- Onu mən sancacağam!

Qaim Şirvani dedi:

- Bərəkallah!

Və bu sözdən sonra bayaq ağlayıb, Qurani-Kərimə əl basmaqdan imtina edən lotu Kamal Mərufa qarşı məclis əhlinin qəlbində cücərən şübhə toxumları məhv oldu.

Qaim Şirvani yenə üzünü süfrə ətrafındakılara tutdu:

- Yaxşı, bəs sonra? Birdən İmadəddin Nəsimi buna əhəmiyyət verməsə, neyləyəcəyik?

Bu zaman Əhməd Kəsirəddin dedi:

- Hələlik mürşidimiz bizə bunu tapşırıb. İşi kim görsə, xələti hazırdır, gələn yığıncağımızda alacaq.

- Bəli, - deyə Qaim Şirvani onun sözünü təsdiq etdi. Mürşid özü bu sözləri şəxsən sizə çatdırmağı mənə tapşırıb.

- Qaim əmi, - Kamal Məruf qalxıb yığıncaq sədrinin əlini tutmaq istədi, - bəs mürşidin üzünü nə vaxt görəcəyik? Bəs mürtəd, - o səsini alçaldıb, - İbrahim şaha nə vaxt qəsd edəcəyik?

- Susss... - Qaim Şirvani gözünü ağartdı, - otur, vaxtından əvvəl banlayan xoruzun başını bədənindən üzərlər. Əvvəla, heç vaxt heç bir mürşidin üzünü görüb, kimliyini bilməyəcəyik, ta ki...

- Ta ki, nə? - Kamal Məruf boynunu irəli uzatdı.

- Ta ki, rəncbər taxt-tacdan uzaq edilincəyə qədər...

❖ ❖ ❖

Bazar divarına bitişik tək iri, təkotaqlı evin cəmi-cümlətanı bir qapısı vardı və bu qapı öz rəngində olan, güclə sezilən düymə ilə açılırdı, arxadan birbaşa küçəyə. Otaqda üz-üzə iki nəfər oturmuşdu; biri qəzəbli vaxtı üzünə baxmağa adamdan hünər istəyən və gözləri müsahibinin düz gözlərinin içinə sancılan, daşsifət müsəllim Müqtədir Oğuz, biri də lotu Kamal Məruf.

- Hə, Kamal Məruf, danış görüm neyləmisən? Onların qəsdi nədi?

Dünən Rəbiyyə xatunun evində uşaq kimi ağlayıb, özünü bir az da ağıldan kəm kimi göstərən Kamal Məruf tamamilə başqa bir qiyafədə, tamamilə başqa bir səslə dedi:

- Hər şey bizim istədiyimiz kimi oldu. Bu axşam Seyid Əli İmadəddin Nəsiminin qapısına bir ox sancacağam.

- Niyə?

- Həm xəbərdarlıq etmək, həm də qorxutmaq üçün.

- Məqsədləri elə budur?

- Ya Şamaxıdan didərgin salmaq, ya da fürsət düşərsə, qətlə yetirmək. Bütün Şirvan şairlərinin arzusu budur. Mürşidin məramı isə tamam başqadır.

Kamal Məruf susub, müsəllim Müqtədir Oğuzun heç bir şey ifadə etməyən daş kimi sifətinə baxdı.

Müsəllim Müqtədir Oğuz soruşdu:

- Başqa, yəni nə?

- Mürşidin məramı rəncbəri taxtdan salmaqdır.

- Aha, - müsəllim çənəsini tutub, gözlərini qıydı, - mürşidin kimliyi barədə məlumatı olan varmı?

- Bir nəfərin - şair Qaim Şirvaninin. Danışığından belə çıxdı.

- Biz tələsmədən, ehtiyatla onları bir-bir dənləməliyik. De görüm, uşaq vaxtı ananın hövsərdə düyü arıtlamağını görmüsənmi?

Kamal Mərufun gözləri parıldadı:

- Bəli, çox görmüşəm.

- O neyləyərdi?

- Düyünü hövsərin bir qırağına töküb, sonra daş-kəsəyini - sulufunu hissə-hissə arıtlayardı.

- Yəni düyünü gərəksiz şeylərdən təmizləyərdi. Biz də elə etməliyik. Sən bu gecə get şairin qapısına oxunu sanc. Qorxma, onu xəbərdar edəcəyik. Bizim adamlar sizin məclis üzvlərini güdürlər. Kimlərlə görüşürlər... nə danışırlar. Elə ki, böyük balığın kimliyini müəyyən etdik, bir gecədə hamısını dama basacağıq, içində də sən olmaqla.

Kamal Məfurun gözləri böyüdü. Bunu görən müsəllim Müqtədir Oğuz dedi:

- Qorxma, şərait yaradacaqlar ki, sən qaçıb aradan çıxasan. İndi get, oxunu sanc.

❖ ❖ ❖

Axşam Seyid Əlinin qapısı döyüldü. Şahxəndan soruşdu:

- Kimdir?

Bir uşaq səsi gəldi.

- Aç qapını.

- Kimsən axı?

- Miriş.

- Miriş kimdir? - deyib, Şahxəndan qapını açdı.

Başında araqçın, belində qırmızı mahuddan kəmər, on üç-on dörd yaşlarında gülməli bir oğlan idi bu. Şahxəndan təəccüblə:

- Nə istəyirsən? - dedi.

Oğlan pıçıltıyla:

- Məni müsəllim göndərib, - dedi.

- Müsəllim?

- Bəli, müsəllim Müqtədir Oğuz.

Söhbəti eşidən Seyid Əli onlara yaxınlaşdı:

- Hə, qocaq, nə olub?

Oğlan o yan-bu yana baxıb, astadan dedi:

- Bu gecə sizin qapınızı oxa tutacaqlar. Məni göndərdilər deyim ki, narahat olmayasınız.

Oğlan sözünü qurtarar-qurtarmaz bir göz qırpımında yox oldu.

Seyid Əli Şahxəndana dedi:

- Hə, balası, vəziyyət qəlizdir. Deməli, müsəllim də, nəzmiyyə rəisi də hər şeyi bilirlər, amma nəyə görəsə əsaslı tədbir görməyə tələsmirlər. Biz gərək çox ehtiyatlı olaq. Ancaq bütün günü evdə də otura bilmərik. Küçə-bazara çıxmalıyıq. Üstəlik, mən dünən müsəllimə demişəm ki, məscidə - cümə namazına gedəcəyəm.

Şahxəndan çaşan kimi oldu:

- Bəs, qorxmursan?

- Yox, çünki məni güdənləri güdürlər...

❖ ❖ ❖

Sübh tezdən Seyid Əligilin qapısına xeyli adam toplaşmışdı. Onlar qapıya sancılmış oxa təəccüb və heyrətlə baxırdılar.

Kimsə dedi:

- Seyid Əli, bilirsiniz bunun mənası nədir?

Seyid Əli əsnəyərək:

- Qonşu uşaqlarının işidir. Yəqin Şahxəndanla zarafatlaşırlar.

Adamlar ev yiyəsinin laqeydliyini görüb dağılışdılar.

Şahxəndan dedi:

- Dadaş, bu həngamədən sonra sən məscidə gedəcəksən?

- Əlbəttə.

- Onda mən də gedəcəyəm.

- Gedək.

İçəri keçib, həyət qapısını örtdülər. Qaçalan damın yanında başını əllərinin üstünə qoyub uzanmışdı.

Seyid Əli dedı:

- Eh, Qaçalan, Qaçalan... Gecələr adamı yatmağa qoymursan. Yaman çox hürürsən ha...

Comərd iki dəfə hürməklə sanki onun dediklərini təsdiqlədi.

Şahxəndan güldü:

- Deyir, düz deyirsən. İş vaxtım gecələrdir. İşimin də adı hürməkdir.

Seyid Əli təəccüblə Şahxəndanın üzünə baxdı:

- O bu qədər sözü elə iki dəfə hürməklə dedi?

- Bəs necə?! İt bir dəfə hürəndə bir necə cümlə deyir.

- Bunu özündən uydurursan, yoxsa kimdənsə eşitmisən?

- Əlbəttə, özümdən uydururam.

Şairlər şairi başını buladı:

- Vallah, sənin ağlına daha heç bir sözüm yoxdur.

Günortadan sonra böyük qardaşla kiçik qardaş evdən çıxıb, Sarıtorpaq məhəlləsindəki məscidə yollandılar. Cümə günü olduğundan, adam çox idi. Seyid Əli köhnə dostu Qara Qaplan Səkmən oğlunu görüb, ona tərəf getdi. Qucaqlaşdılar. Elə bu vaxt imam Zahir ibn Saleh adamların arası ilə yuxarı başa keçib, kiçik xalça üstə möhür-canamazı səliqəyə salaraq dönüb camaata baxdi, - yəni ki, hazır olun, başlayaq.

Seyid Əlinin sağında Qara Qaplan Səkmən oğlu, solunda isə Şahxəndan dayanmışdı. Onlar - La - ilahə - İlləllah, - söyləyib, imamın sözlərini pıçıltıyla təkrar edərək, namaza başladılar. Aradan hec on dəqiqə keçməmişdi ki, qəfildən iki cavan yerindən qalxdı, bir an sonra eynilə başqa yerdən iki cavan daha ayağa qalxıb, onların qabağını almaq istədilər. Xəncərlər havada parıldadı və səs-küy, qışqırıq aləmi başına götürdü.

*(Ardı var)*

---

**Dövlət başçısına minnətdarlıq**

# Sağ ol, əziz Prezident!



Mən şəhid anasıyam. Qarabağ müharibəsində iki oğul itirmişəm. Famil döyüşlərdə qəhrəmanlıqla həlak olub, Kamil itkin düşüb. Ana üçün iki oğul itirmək çox ağır dərddir. Onların ölümünə hələ də inanmıram.

Dərdim ağır olsa da, dözürəm. Kədərimə el-oba həmişə şərik olur. Bu da mənə təsəlli verir. Ən böyük qayğını, təsəllini isə cənab İlham Əliyevdən görmüşəm. O, 2014-cü ilin 6 avqustunda Ağdama səfər edəndə mənimlə də əziz, doğma adamı kimi görüşüb söhbət etdi. Ailəmizin vəziyyəti ilə, dolanışığımızla maraqlandı. Həmin vaxt rayonda qaçqın və məcburi köçkünlər üçün Yeni İmamqulubəyli qəsəbəsi istifadəyə verilirdi. Sən demə, dövlət başçısının məni sorğu-suala tutması əbəs deyilmiş. Ailəmiz haqqında müfəssəl məlumat alan kimi gözləmədiyim halda dedi ki, sizin ailəyə dördotaqlı ev bağışlayıram, şəhid ailələrinə qayğı dövlətin borcudur.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın şəhid ailələri ilə keçirdikləri görüşə televiziya ilə baxdım. O görüşdə ölkə rəhbərinin çıxışındakı hər sözündə, hər kəlməsində şəhid ailələrinə sonsuz hörmət və ehtiram duyulurdu.

Şəhid ailələrinə verilən təqaüdün artırılaraq 300 manata çatdırılması ilə bağlı dövlət başçısının imzaladığı fərman hər kəsdə minnətdarlıq doğurur. Bu fərmanın özü yaralı ürəklərə bir məlhəmdir.

***Məryəm CƏFƏROVA,***
***Ağdam rayonunun İmamqulubəyli kənd sakini***

# Şəhid ailələrinə sonsuz ehtiram



Vətənimizin ərazi bütövlüyü, müstəqilliyimizin qorunması yolunda şəhid olmuş Azərbaycan övladlarının xatirələrinin əbədiləşdirilməsi ilə bərabər, onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsi üçün aparılan ardıcıl işlər ölkə rəhbərinin şəhid ailələrinə göstərdiyi böyük qayğıdan irəli gəlir. Belə şəhidlərdən biri Vaqif Əhəd oğlu Əliyarovdur.

Vaqif 1994-cü il yanvar ayının 22-də Ağdərə döyüşlərində şəhid olub. O, 25 ildir digər şəhidlər kimi ehtiramla yad edilir. Vaqifin həyat yoldaşı Ədibə Əliyarova deyir ki, bu itki ağır olsa da, o vaxtdan dövlət bizi maddi baxımdan çətinlik çəkməyə qoymur. İsmayıllı şəhərində bizə mənzil verilib, tədris mərkəzində işlə təmin olunmuşam.

Qızım Anamgül atasının üzünü görməyib, səsini eşitməsə də orta məktəbdə yaxşı oxudu. Sumqayıt Dövlət Universitetinin riyaziyyat fakültəsində təhsil aldı, bakalavr və magistr pilləsini bitirdi. Dövlət qayğısı ilə böyüyən Anamgül indi ailə, övlad sahibidir. Oğluna atasının adını qoydu. Bu da mənim üçün böyük təsəllidir.

Ədibə xanım onu da bildirdi ki, dövlət başçısının şəhid ailələrinin sosial vəziyyətinin və maddi rifahının daha da yaxşılaşdırılması üçün ayırdığı 11 min manat onların da ailəsinə şamil olunub. Bununla bağlı artıq bütün sənədlər hazırdır və yaxın günlərdə vəsait onlar üçün açılmış bank hesabına daxil ediləcək.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın şəhid ailələri ilə görüşündən də söz açdı. Bu görüşdən iki gün sonra dövlət başçısının şəhid ailələrinə verilən təqaüdün artırılaraq 300 manata çatdırılmasını yüksək qiymətləndirib, ölkə rəhbərinə səmimi minnətdarlığını bildirdi.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Vətən, sənə borcluyam mən!

Dövlətin gördüyü tədbirlər sayəsində ölkəmizin müdafiə qabiliyyəti daim artır, Silahlı Qüvvələrimizin hərbi-texniki bazası durmadan möhkəmlənir. Elə bunun nəticəsidir ki, Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordu sırasına yüksəlib. Bu orduda qulluq etməyi qaxlı gənclər də özlərinə şərəf bilirlər.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qax bölməsinin rəisi polkovnik-leytenant Fuad Hüseynovla da söhbətimiz əsasən bu barədə oldu. O dedi ki, Qaxda gənclər və yeniyetmələr arasında vətənpərvərlik hissinin daha da yüksəldilməsi istiqamətində əməli addımlar atılır. Bu işdə rayon təhsil şöbəsinə, idman və gənclər idarəsinə bizim bölmə də yaxından kömək edir. Ən vacib cəhətlərdən biri gənclər arasında maarifləndirmədir. Bu məqsədlə orta məktəblərlə birgə zəruri iş aparılır. Bölmənin rəhbərliyi və əməkdaşları tərəfindən məktəblərdə keçirilən söhbətlər, "Şahin" hərbi idman oyunları şagirdlərdə hərb sənəti ilə bağlı müəyyən təsəvvür formalaşdırır, silahla davranış qaydaları izah olunur, onların fiziki sağlamlığına xüsusi diqqət yetirilir.

Belə tədbirlərdə Qarabağ uğrunda gedən döyüşlər zamanı şəhid olan və itkin düşmüş qaxlılar da daim yad olunur. Bu kateqoriyadan olanların sayı rayon üzrə 141 nəfərdir. Belə insanların həm doğum günləri, həm də şəhid olduqları gün ailələrinə baş çəkilir, məzarları ziyarət edilir.

Bölmə rəisi keçən il keçirilən vətənpərvərliklə bağlı tədbirlərdən söz açdı. Onlardan biri Qax rayon Mədəniyyət evində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Qax Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Vətənin müdafiəsinə hazıram" mövzusunda keçirilmişdi. Tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad etmiş, adını daşıyan mərkəzdə zəngin və mənalı ömür yolunu əks etdirən eksponatlar və fotoşəkillərlə tanış olmuşlar. Tədbirdə şəhid ailələrinin üzvləri, müharibə veteranları, gənclərin çağırışaqədərki hazırlıq rəhbərləri və məktəblilər iştirak etmişdilər. Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev belə tədbirlərin əhəmiyyətindən söz açmış, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin şöbə rəisi polkovnik Rasim Şirinov Azərbaycan Silahlı Qüvvələrinin əldə etdiyi nailiyyətlərdən danışmışdır.

Həmin mərasimdə şəhid anası Dinar Məhyəddinova və aprel döyüşlərinin iştirakçısı Ayaz Cumayev, "Hərbi vətənpərvərlik tərbiyəsində xidmətlərinə görə", "Çağırışaqədərki hazırlıq" fənninin tədrisində səmərəli fəaliyyəti ilə fərqlənən hərbi rəhbərlər, "Çağırışaqədərki hazırlıq" fənnində yüksək nailiyyətlər göstərən şagirdlər mükafatlandırılmışlar.

Tədbirdə vətənpərvərlik mahnılarının mahir ifaçısı Şəmistan Əlizamanlının və Qax Şəhər İncəsənət məktəbinin, orta məktəblərin özfəaliyyət kollektivlərinin vətənpərvərlik mövzusunda çıxışları iştirakçılara unudulmaz anlar yaşatmışdır.

Rayonda gənclərin hərbi xidmətə yola salınması həmişə təntənəli keçirilir. Belə tədbirlərdə rayon icra hakimiyyətinin rəhbərliyi, Böyük Vətən müharibəsi veteranları, rayon ağsaqqalları və Qarabağ müharibəsi əlliləri, ictimai təşkilatların nümayəndələri, yerli icra nümayəndələri, çağırışçı gənclərin valideynləri iştirak edirlər.

Yüksək səviyyədə keçirilən bu tədbirlər rayon əhalisi tərəfindən rəğbətlə qarşılanır.

Bu il də Qaxda gənclərin hərbi vətənpərvərlik hissinin artırılmasına xidmət edəcək çoxsaylı tədbirlərin keçirilməsi nəzərdə tutulub. Bununla bağlı ayrıca plan hazırlanıb.

***Ə.SƏLİMOV,***
***"Azərbaycan"***

# Naxçıvanda hərbi hissə və sərhəd zastavasına kənd təsərrüfatı məhsulları təqdim olunub

Xalq-ordu birliyini özündə əks etdirən tədbirlərin davamı kimi sahibkarlar tərəfindən 5500 kiloqram kənd təsərrüfatı məhsulu əsgərlərə təqdim olunub.

Əlahiddə Ümumqoşun Ordunun mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, muxtar respublikanın Şərur rayonunun Aralıq kənd sakini Əmir Əsədov, Məmmədsabir kənd sakini Əli Rüstəmov və "N" hərbi hissəsinin giziri Sərvan Məmmədov tərəfindən 3 ton sarımsaq, 1700 kiloqram turp və 800 kiloqram kartof hərbi hissə və sərhəd zastavasına hədiyyə edilib.

Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsində və "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının zastavasında şəxsi heyətlə görüş zamanı dövlət qayğısından və xalq-ordu birliyindən danışılıb.

Sonda gətirilmiş sovqat hərbi hissə və zastavanın anbarlarına təhvil verilib.

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin
### 13 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzi 2019-cu il təhsil müəssisələri üçün istilik enerjisi (quru odun yanacağı) satın alınması məqsədilə
### *açıq tenderə dəvət edir*

**Tender 1 (bir) LOT üzrə aparılır:**

**Lot 1** - Odun yanacağının satın alınması.

Müqavilənin müddəti: 30 dekabr 2019-cu il tarixədək.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə 13 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzinin Tender komissiyasına təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıda göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürməklə Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Salyan şəhəri, Ə.Hüseynov küç. 2 a ünvanında yerləşən 13 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzindən ala bilərlər (əlaqələndirici şəxs: Əhmədov Elmar Ağakişi oğlu, əlaqə telefonu: 012-585-09-25).

**Lot 1- 200 (iki yüz) manat**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

**"Kapital Bank" ASC Salyan filialı**
**KOD: 200435**
**VÖEN: 9900003611**
**Müxbir hesab:**
**AZ37NABZ01350100000000001944**
**SWIFT BİK: A İİBAZ 2X**
**(13 saylı ƏMHM,**
**H/H AZ12AİİB32051029444300201143)**
**VÖEN: 7000845091**

İştirak haqqı heç bir halda geri qaytarılmır. Əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır. Tender təklifinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: mövcud qanunvericiliyə uyğun olaraq ən səmərəli təklifə, analoji işlərdə təcrübəsinə, kadr potensialına, maliyyə-texniki imkanlarına. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri Tender komissiyasına təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *vergi orqanından tenderdə iştirak barədə arayış;*
- *iddiaçının nizamnaməsi (surəti), fəaliyyət növü, hüquqi statusu və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank zəmanəti (tender təklifinin qüvvədə olma müddətindən ən azı 30 bank günü çox olmalıdır);*
- *vergi orqanlarına, sosial müdafiə fonduna və digər icbari ödənişlərə dair borcların olmaması barədə müvafiq arayış.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank zəmanəti və iş qrafiki istisna olmaqla 19 mart 2019-cu il saat 16:00-da, iş qrafiki, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 02 aprel 2019-cu il saat 17:00-a qədər Salyan şəhəri, Ə.Hüseynov küçəsi, 2 a ünvanında yerləşən 13 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 04 aprel 2019-cu il saat 11:00-da Salyan şəhəri, Ə.Hüseynov küçəsi, 2 a ünvanında yerləşən 13 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzində açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərpoçt" MMC tərəfindən tabeli poçt müəssisələrinin təminatı üçün bağlama qutularının satın alınması ilə bağlı 27 dekabr 2018-ci il tarixdə elan edilmiş açıq tender Azərbaycan Respublikasının "Dövlət satınalmaları haqqında" qanununun 11.1-ci maddəsinə əsasən (tender təklifi vermiş iddiaçıların sayı üçdən az olduğu) prosedurun davamından imtina edilmişdir.

***Tender komissiyası***

# Düşmən ordusunun hərbçiləri tərəfindən saxlanılmış Elnur Hüseynzadə Şuşa şəhərindən Ermənistana aparılıb

Ermənistan hərbçiləri tərəfindən işğal edilmiş Dağlıq Qarabağ ərazisində 2017-ci il fevralın 1-də saxlanılmış və separatçı rejimin qeyri-qanuni məhkəməsi tərəfindən "azadlıqdan məhrum edilmiş" Azərbaycan Respublikasının vətəndaşı, 1995-ci il təvəllüdlü Hüseynzadə Elnur Elman oğlu saxlanıldığı Şuşa şəhərindən fevralın 2-də Ermənistan Respublikasına aparılıb.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından AZƏRTAC-a bildiriblər ki, bu barədə aidiyyəti beynəlxalq təşkilatlardan məlumat daxil olub.

Saxlanıldığı vaxtdan etibarən E.Hüseynzadənin azad edilməsi ilə bağlı aidiyyəti beynəlxalq təşkilatlar qarşısında məsələ qaldırılıb və hazırda bu istiqamətdə zəruri işlər aparılır.

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə və İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq kəndində və Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Yarımca, Ağdam rayonunun Cəvahirli, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Kürdlər, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Bakı Şəhər İcra Hakimiyyəti "Yaşıl Teatr" Bakı Konsert Kompleksi
### tədbirlərin keçirilməsinin satın alınması məqsədilə
### *açıq tender elan edir*

**LOT - 1** 10 may 2019-cu il - Müstəqil Azərbaycan Dövlətinin banisi və qurucusu, Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyevin doğum günü münasibətilə "Yaşıl Teatr" Bakı Konsert Kompleksində bayram konsertinin və Məktəbəqədər Təhsil Müəssisələrində tədbirlərin keçirilməsi.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları yüksək kadr potensialına, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər 200 manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Sona Vəlixanlı 1 ünvanından ala bilərlər (Əlaqələndirici şəxs: Cavadov İlqar Əziz oğlu, tel.: 492-46-34).

**Kapital Bank Səbail filialı**
**Kodu: 200059**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**SWIFT: AİİBAZ2X**
**"Yaşıl Teatr" Bakı Konsert Kompleksi**
**H/H: AZ05AIIB33070019443501623105**
**VÖEN: 1700779931**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflər açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1(bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 13 mart 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş, ikiqat zərfdə 28 mart 2019-cu il saat 17:00-a qədər "Yaşıl Teatr" Bakı Konsert Kompleksinə (ünvan: Sona Vəlixanlı küç.1) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklif zərfləri 29 mart 2019-cu il saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

***Tender komissiyası***

# Beynəlxalq aləm



# İfrat sağçı, niderlandlı siyasətçi islamı qəbul etdi

Niderland parlamentinin sabiq deputatı, əvvəllər ifrat sağçı, Azadlıq Partiyasında ikinci adam olmuş Yoram van Klaveren islamı qəbul etmişdir. Yerli KİV-in xəbərinə görə, 39 yaşlı siyasətçi ötən ilin oktyabrında müsəlman olmuşdur. Van Klaveren bu qərarı islam əleyhinə kitab yazarkən öyrəndiyi islam təliminin təsiri altında qəbul etmişdir.

Eks-deputat islamı qəbul etdikdən sonra ifrat sağçıların hərəkətlərini tənqid etməyə başlamışdır. O, müsəlmanlara hücumların yolverilməz olduğunu bəyan edir.

# Ötən ay Əfqanıstanda 900 nəfərdən çox adam həlak olub



2019-cu ilin ilk ayında Əfqanıstanda baş vermiş toqquşmalar nəticəsində 900 nəfərdən çox adam həlak olmuş, azı 800 nəfər yaralanmışdır.

Bu il ilk münaqişə Yeni il günü ölkənin şimalında yerləşən Sari-Pul əyalətindəki Səyyad rayonunda taliblərin hücumundan sonra baş vermişdir. Atışma zamanı təhlükəsizlik qüvvələrinin 20 əməkdaşı həlak olmuş, 20-si yaralanmışdır. Bu hücumdan əvvəl ABŞ taliblərlə atəşkəs barədə danışıqlara başlamışdır. ABŞ-ın Əfqanıstan üzrə xüsusi elçisi Zalmay Xəlilzad BƏƏ-də ilk dəfə "Taliban"ın nümayəndələri ilə görüşmüşdür.

Yanvarda ən qanlı hadisə ayın 25-də ABŞ qüvvələrinin Gilmənd əyalətində taliblərin nəzarət etdiyi Sangin şəhərinə endirdiyi hava zərbəsi olmuşdur. Bu hücum nəticəsində bir ailənin 16 üzvü ölmüşdür.

# Çin sakinləri Yeni ili qeyd etdilər



Çin sakinləri Ay təqvimi ilə yeni 4717-ci ilə qədəm qoymuşlar. Yeni il, yaxud Bahar bayramı (Çuntsze) fevralın 5-nə keçən gecə başlamışdır.

Bayram tədbirləri paytaxt Pekinin şimalındakı Yer Məbədində keçirilmişdir. Tamaşaçılara şər qüvvələri qorxudan ənənəvi "şirlər rəqsi" nümayiş etdirilmişdir. Bundan əlavə, Sin nəslinin imperatorlarının Yerə qurban kəsmək mərasimi tamaşaçılara göstərilmişdir. Pekində böyük Yeni il yarmarkası təşkil olunmuşdur.

Rəsmi Yeni il bayramı fevralın 10-dək davam edəcək. Ənənəyə görə, Yeni ilin ilk beş günü qohumlar, dostlar, sinif və iş yoldaşları ilə görüşlər üçün nəzərdə tutulmuşdur.

Yeni il şənlikləri Ay təqviminin birinci ayının 15-ci günü, Fənərlər bayramından sonra başa çatacaq.

# Parisdə dəhşətli yanğın



Fransanın paytaxtı Parisdə baş vermiş yanğın nəticəsində 8 nəfər həlak olmuş, təxminən 30 nəfər yaralanmışdır. Bu barədə paytaxt prokuroru Remi Heyts BFMTV telekanalının efirində məlumat vermişdir. O qeyd etmişdir ki, bu, ilkin məlumatdır.

Paris meri Ann İdalqo ölənlərin ailələrinə başsağlığı vermişdir.

Yanğın srağagün gecə yerli vaxtla saat 01:00 radələrində Parisin 16-cı dairəsində, Erlanje küçəsindəki səkkizmərtəbəli binada baş vermişdir. Hadisə yerinə 200-ə yaxın yanğınsöndürən gəlmişdir. Qonşuluqdakı evlərin sakinləri təxliyə edilmişlər.

Yanğının səbəbi hələ ki, məlum deyil.

Paris prokurorluğundan verilən məlumata görə, hadisə ilə əlaqədar bir nəfər saxlanmışdır. O, yanmış bunanın sakinidir. BFMTV telekanalının xəbərinə görə, saxlanılan 41 yaşlı qadın ruhi xəstədir.

# Burkina-Fasoda terror aktında 14 nəfər həlak oldu



Burkina-Fasonun Yatenqa əyalətində baş vermiş terror hücumu nəticəsində 14 dinc sakin həlak olmuşdur. Bu barədə ölkə ordusunun Baş Qərargahı məlumat vermişdir.

Öz növbəsində hərbçilərin cavab zərbəsi ilə ölkənin üç departamentində 146 terrorçu məhv edilmişdir. Baş Qərargahın bəyanatında deyilir ki, ölkədə təhlükəsizliyin təmin olunması əməliyyatları davam edir.

Baş Qərargah əhalini ordunun ölkəni, vətəndaşları və onların əmlakını müdafiə etmək əzminə inanmağa çağırmışdır.

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin
### 13 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzi 2019-cu il təhsil müəssisələri üçün 224300 maddəsindən texniki suyun satın alınması məqsədilə
### *kotirovka sorğusu elan edir*

Kotirovka təklifləri 22.02.2019-cu il saat 17:00-a qədər 13 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzinin Tender komissiyasına təqdim olunmalıdır. Təkliflərin açılma proseduru 25.02 2019-cu il tarixdə saat 15:00 da həyata keçiriləcəkdir. Prosedurda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilər.

**Ünvan: Salyan şəhəri, Ə.Hüseynov küçəsi, 2 A, əlaqə telefonu: (012) 585-09-25**

***Tender komissiyası***

# Ölkə ərazisində sabit hava şəraiti davam edəcək

Azərbaycanda bu gün gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə zəif duman, çiskin olacaq. Mülayim cənub-qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturu gecə 2-5°, gündüz 7-9° isti olacaq.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5°, dağlıq ərazilərdə 8-10° şaxta, gündüz 6-11° isti olacağı gözlənilir.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcərdə, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 1-6° şaxta, gündüz 3-8° isti olacağı ehtimalı var.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 0-4°, gündüz 8-13° isti olacağı proqnozlaşdırılır.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman müşahidə ediləcək. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 5-10° isti, dağlarda gecə 7-12° şaxta, gündüz 0-5° isti olacağı bildirilir.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman, çiskin olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 1-6°, gündüz 8-13° isti olacağı ehtimal edilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə havanın çiskinli olacağı gözlənilir. Dağlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 3-6°, gündüz 8-12° isti, dağlarda gecə 0-3° şaxta, gündüz 5-8° isti olacaq.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Fərhad Təhməzova əzizi

**NARİYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Fikrət Əzizov, Əli Rəsulov, Rüfət Əliyev, Şakir Səlimov, Raqib Abbasov general-mayor Araz Məmmədova atası

**MƏMMƏD MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Məhərrəm Səfərli VİP Aviasiya Xidmətləri Şirkətinin baş direktoru İlham Şükürova anası

**ƏMİNƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Mətanət A" şirkətinin rəhbəri Elxan Bəşirov general-mayor Araz Məmmədova atası

**MƏMMƏD MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı şəhəri Xətai Rayon Məhkəməsinin kollektivi məhkəmənin əməkdaşı Təranə Qasımovaya atası

**SAHİB QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8356
Sifariş 392
Qiyməti 40 qəpik